QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 215 (5446) 24 **noyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# "Bizim NATO ilə əməkdaşlığımızın böyük potensialı var"

## *Azərbaycan Prezidenti və NATO-nun baş katibi mətbuata bəyanatla çıxış ediblər*




Səh 3


**Prezident İlham Əliyev NATO-nun Şimali Atlantika Şurasının iclasında iştirak edib**



2

**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin XIII Yüksək Səviyyəli Afina Toplantısı başa çatıb**



4

**Milli Məclisdə dövlət büdcəsi zərfinə daxil olan sənədlərin müzakirəsi başa çatıb**



5

**Akademik Akif Əlizadə: Ölkəmizdə müasir texnologiyalara əsaslanan yeni istehsal müəssisələri yaradılır**



6

**Bəhruz Quliyev: "Avropanın ikili standartları idmanda da özünü göstərdi"**



6

**Hikmət Hacıyev: "Ermənistan yeganə monoetnik ölkədir"**



7

10

**Rövşən Rzayev: Brüssel Forumunda separatizmin dünya üçün ciddi təhlükə olmasına dair mühüm bəyanatlar verildi**



4

**Azərbaycan ilə Pakistan arasında hərbi sahədə əməkdaşlıq müzakirə olunub**



16

**"The Sun" qəzeti: "Hakimdən "Qarabağ"a qarşı ağılsız qərar"**



# Prezident İlham Əliyev NATO-nun Şimali Atlantika Şurasının iclasında iştirak edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Brüsseldə NATO-nun Şimali Atlantika Şurasının iclasında iştirak edib.***

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Şimali Atlantika Şurasının iclasında əvvəlcə NATO-nun baş katibi Yens Stoltenberq çıxış etdi. Sonra o, sözü Azərbaycan Prezidenti İlham Əliyevə verdi.

Dövlətimizin başçısı Azərbaycan ilə NATO arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirdi. Ölkəmizin NATO-nun müxtəlif missiya və əməliyyatlarında fəal iştirak etdiyini vurğulayan Prezident İlham Əliyev NATO-nun, öz növbəsində, Azərbaycanda ərazilərin minalardan təmizlənməsi işində fəal iştirak etdiyini bildirdi. Qeyd olundu ki, Azərbaycan Əfqanıstandakı sülhməramlı fəaliyyətini genişləndirir və bu ölkə ilə ikitərəfli səviyyədə iqtisadi və digər sahələrdə əməkdaşlığı həyata keçirir.







Prezident İlham Əliyev Azərbaycan-Avropa İttifaqı münasibətlərinə toxundu, əməkdaşlığın uğurla inkişaf etdiyini və onun müxtəlif sahələri əhatə etdiyini bildirdi.

Azərbaycanda demokratik inkişaf məsələlərindən danışan Prezident İlham Əliyev ölkəmizdə azad internet, söz, toplaşma və digər azadlıqların təmin edildiyini vurğuladı. Ölkəmizdə iqtisadi inkişaf məsələləri və bu sahədə həyata keçirilən genişmiqyaslı islahatlar barədə danışan dövlətimizin başçısı qeyd etdi ki, 2000-ci ildən bəri Azərbaycan iqtisadiyyatı 3 dəfə artıb, yoxsulluq səviyyəsi 49 faizdən 5 faizə, həmçinin işsizlik səviyyəsi 5 faizə düşüb, xarici borcumuz ümumi daxili məhsula nisbətən 20 faizdən də aşağı səviyyədədir.

Prezident İlham Əliyev Azərbaycanın dünyada multikulturalizm mərkəzlərindən birinə çevrildiyini, ölkəmizdə multikulturalizmin, tolerantlığın təmin olunduğunu və bununla bağlı bir sıra mühüm tədbirlərin keçirildiyini bildirdi. Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdiyini, Davos Dünya İqtisadi Forumunun ölkəmizin iqtisadiyyatını rəqabətqabiliyyətliliyinə görə dünya dövlətləri arasında 37-ci yerdən 35-ci yerə layiq gördüyünü qeyd edən dövlətimizin başçısı təhsil, infrastruktur, nəqliyyat və digər sahələrdə əldə olunan uğurlardan danışdı.

Prezident İlham Əliyev Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasındakı rolunu qeyd etdi, "Cənub Qaz Dəhlizi" layihəsindən danışdı, TANAP və TAP layihələrinin uğurla icra edildiyini bildirdi və Azərbaycanın uzun illər bundan sonra da Avropanın etibarlı qaz təminatçısına çevriləcəyini dedi. Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyətini qeyd edən dövlətimizin başçısı bu yolun Asiya ilə Avropa arasında ən qısa yol olduğunu dedi, Azərbaycanın Şimal-Cənub və Şərq-Qərb arasında mühüm tranzit qovşağına çevrildiyini vurğuladı.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə geniş toxundu, Ermənistanın ölkəmizin 20 faiz torpaqlarını, o cümlədən Dağlıq Qarabağı və ətraf 7 rayonu işğal etdiyini vurğuladı. Ermənilərin həmin ərazilərdə törətdikləri hərbi cinayətlər, Xocalı soyqırımı, günahsız insanların qətlə yetirilməsi və etnik təmizləməyə məruz qalması barədə ətraflı danışan dövlətimizin başçısı ATƏT-in faktaraşdırıcı missiyalarının da işğal olunmuş ərazilərdə dağıntıları qeydə aldıqlarını bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, BMT Təhlükəsizlik Şurasının Ermənistan işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmasını tələb edən 4 qətnaməsi icra edilmir və Ermənistan status-kvonu saxlamaq niyyətindədir. NATO-nun Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini deyən Prezident İlham Əliyev vurğuladı ki, Avropa İttifaqının müvafiq sənədlərində də ölkəmizin ərazi bütövlüyü dəstəklənir.

Sonra bir çox ölkələrin səfirləri çıxış etdilər və Azərbaycanın NATO-nun missiyalarında fəal rolundan danışdılar, ölkəmizin Əfqanıstana göstərdiyi yardımı və oradakı missiyada iştirakını yüksək qiymətləndirdilər, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfəsini qeyd etdilər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxundular və münaqişənin həllinin zəruriliyini bildirdilər. Sonda dövlətimizin başçısı NATO-dakı səfirlərin suallarını cavablandırdı.




## *Rəsmi xronika*

Prezident İlham Əliyev Ağacan Abiyevin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Ağacan Qulam oğlu Abiyev "Şərəf" ordeni ilə təltif edilsin.

# “Bizim NATO ilə əməkdaşlığımızın böyük potensialı var”

*Azərbaycan Prezidenti və NATO-nun baş katibi mətbuata bəyanatla çıxış ediblər*

***AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, noyabrın 23-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və NATO-nun baş katibi Yens Stoltenberq mətbuata bəyanatla çıxış ediblər.***

**NATO-nun baş katibi Yens Stoltenberqin bəyanatı**

-Prezident Əliyev, NATO mənzil-qərargahına yenidən xoş gəlmisiniz. Sizi burada görməyə çox şadam. Çox konstruktiv görüşə görə Sizə təşəkkürümü bildirirəm. Mən, həmçinin Şimal Atlantika Şurası çərçivəsində görüşü də səbirsizliklə gözləyirəm. Siz bu Şurada bütün 29 müttəfiq ölkənin nümayəndələri ilə görüşəcəksiniz.

Bu gün biz aramızda olan uzunmüddətli əməkdaşlığımızı müzakirə etdik. Biz Əfqanıstandakı Qətiyyətli Dəstək Missiyasına qoşunlar, tranzit imkanları və Əfqanıstan milli təhlükəsizlik qüvvələrinə maliyyə dəstəyi formasında verdiyiniz davamlı dəstəyə görə Sizə minnətdarıq. Həmçinin Əfqanıstandakı Qətiyyətli Dəstək Missiyasına qoşunların artırılması ilə bağlı qərarınıza görə Sizə təşəkkürümü bildirirəm.

NATO ilə Azərbaycan arasındakı tərəfdaşlığın başlanğıcı uzun illər bundan öncəyə təsadüf edir. Bu tərəfdaşlığın təməli demokratik dəyərlərə və prinsiplərə sadiqlik əsasında qoyulub. Bu gün bizim praktiki əməkdaşlığımız bacarıqların inkişafından tutmuş enerji təhlükəsizliyinə qədər bir çox sahələri əhatə edir və keçmiş sovet ordusundan qalmış partlamamış mina və hərbi sursatların təmizlənməsi üçün etimad fondu çərçivəsində aparılır. Mən, həmçinin Sizə BMT Təhlükəsizlik Şurasının qadınlar, sülh və təhlükəsizlik üzrə 1325 saylı qətnaməsini bizim əməkdaşlıq gündəliyimizə daxil etdiyiniz üçün təşəkkürümü bildirirəm. Bütün bunlar Avratlantik məkanın daha da təhlükəsiz olmasına töhfə verir. Biz seçdiyiniz bütün sahələrdə Sizinlə işimizi davam etdirməyə və əməkdaşlığımızı daha da inkişaf etdirməyə sadiqik. Biz Sizi təhlükəsizlik sahəsində islahatların daha da artırılmasına dəvət edirik və korrupsiya ilə mübarizə sahəsində Sizə dəstək olmaq üçün bizim dürüstlüyün artırılması proqramından tam faydalanmağa çağırırıq.



Bu gün biz, həmçinin Cənubi Qafqazda regional təhlükəsizliyi də müzakirə etdik. Həll olunmamış Dağlıq Qarabağ münaqişəsi narahatlığa səbəb olan məsələdir. Aydındır ki, bu münaqişənin hərbi yolla həll olunması imkanı yoxdur və NATO bu məsələdə birbaşa rola malik deyil. Biz ATƏT-in Minsk qrupunun həmsədrlərinin işini dəstəkləyirik və Ermənistan prezidenti ilə bərpa etdiyiniz dialoq barədə eşitdiyim xəbər məni ruhlandırdı. Biz münaqişənin həllinin danışıqlar yolunun davam etdirilməsini və vəziyyətin gərginləşməsinə yol verilməməsini dəstəkləyirik.

Beləliklə, Prezident Əliyev, icazə verin, buraya təşrif buyurduğunuz və NATO-nun mənzil-qərargahına baş çəkdiyiniz üçün Sizə bir daha təşəkkürümü bildirim. Şimali Atlantika Şurası çərçivəsində görüşünüz əməkdaşlığımızın gələcəkdə necə dərinləşdirilməsinin müzakirə edilməsi nöqteyi-nəzərdən əhəmiyyətli bir fürsət olacaqdır. Bir daha təşəkkür edirəm, buyurun.

**Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı**

-Çox sağ olun, cənab baş katib. Əvvəlcə dəvətinizə görə təşəkkür edirəm. NATO-nun mənzil-qərargahına bir daha gəlməyimə və əməkdaşlığımıza aid mühüm məsələlərin müzakirəsi üçün imkan əldə etdiyimə görə çox şadam.

Əməkdaşlığımızın artıq yaxşı tarixi var. Azərbaycan NATO-nun bir çox əməliyyatlarında - K-4-də, İSAF-da iştirak etmişdir. İndi isə Azərbaycan Qətiyyətli Dəstək Missiyasına öz töhfəsini verir. Əfqanıstanda təhlükəsizliyi və sülhü təmin etmək üçün 94 hərbi qulluqçumuz NATO hərbçiləri ilə çiyin-çiyinə xidmət edir. Azərbaycan, həmçinin koalisiya qüvvələri üçün multimodal tranzit və ərazimiz üzərindən uçuş imkanlarını təmin edir. Azərbaycan Əfqanıstan ordusunun Milli Etimad Fonduna töhfə verib və cənab baş katib qeyd etdiyi kimi, Əfqanıstanda sülh, təhlükəsizlik və sabitliyə daha da artıq töhfə vermək üçün hərbi qulluqçularımızın sayını artıracağıq.

2004-cü ildən bəri Azərbaycan Fərdi Tərəfdaşlıq Fəaliyyət Planına qoşulub və dörd tsikli bitirib. Beşinci tsikl hazırda icra olunmaqdadır. Bu, həmçinin bizim əməkdaşlığımızın vacib elementidir.

Cənab baş katib qeyd etdiyi kimi, biz bu gün regional təhlükəsizliklə bağlı məsələləri müzakirə etdik. Regional təhlükəsizlik üçün ən böyük təhlükə Ermənistan və Azərbaycan arasında həll olunmamış münaqişədir. Uzun illərdir ki, ərazilərimiz erməni işğalı altındadır, bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılıb və əfsuslar olsun ki, vəziyyət dəyişməz olaraq qalır. ATƏT-in Minsk qrupuna üzv olan ölkələrin prezidentlərinin status-kvonun qəbuledilməzliyi və dəyişməli olduğu ilə bağlı bəyanatlarına rəğmən Ermənistan status-kvonu mümkün qədər çox saxlamaq istəyir. BMT-nin Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılması ilə bağlı dörd qətnamə qəbul edib. Ermənistan iyirmi ildən artıqdır ki, bu qətnamələri icra etmir. Münaqişə BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və Azərbaycanın ərazi bütövlüyü əsasında həll olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır.

Bu gün biz, həmçinin nəqliyyat təhlükəsizliyi ilə bağlı məsələləri də müzakirə etdik. Mən cənab baş katibə məlumat verdim ki, Azərbaycan öz qonşuları ilə birlikdə Bakı-Tbilisi-Qars dəmir yolunun inşasını uğurla tamamlayıb. Bu, Asiya və Avropa arasında ən qısa yoldur və Əfqanıstana təchizat bu marşrut vasitəsilə daha asan və səmərəli olacaqdır.

Bizim NATO ilə əməkdaşlığımızın böyük potensialı var və əməkdaşlığın tarixi bunu nümayiş etdirir. Bu gün mənim NATO-nun mənzil-qərargahına səfərim artıq altıncı səfərdir. Beləliklə, bu, əməkdaşlığımızın çox güclü olduğunu nümayiş etdirir. Biz regionumuzda sülhü, təhlükəsizliyi və sabitliyi təmin etmək üçün tərəfdaşlığımızı davam etdiririk. Çox sağ olun.



# “Azərbaycan ilə Avropa İttifaqı arasında uğurlu əməkdaşlıq həyata keçirilir”

*Prezident İlham Əliyev Brüsseldə NATO-nun baş katibi Yens Stoltenberq ilə görüşüb*

***Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də NATO-nun baş katibi Yens Stoltenberqin dəvəti ilə Alyansın mənzil-qərargahına gəlib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, NATO-nun baş katibi Yens Stoltenberq dövlətimizin başçısı İlham Əliyevi qarşıladı. Sonra rəsmi foto çəkdirildi. Daha sonra Azərbaycan Prezidenti İlham Əliyevin və NATO-nun baş katibi Yens Stoltenberqin görüşü oldu.***



Görüşdə Azərbaycan ilə NATO arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi. NATO-nun baş katibi Yens Stoltenberq ölkəmizin qurumun Kosovo və Əfqanıstandakı sülhməramlı missiyalardakı iştirakını yüksək qiymətləndirdi. NATO-nun baş katibi Azərbaycanın Əfqanıstana verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. O vurğuladı ki, Azərbaycanın Əfqanıstana yardımı genişləndirmək planı bu ölkənin iqtisadi inkişafına töhfəsini verə bilər.

Prezident İlham Əliyev NATO ilə əlaqələrimizin genişlənməsindən məmnunluğunu bildirdi. Vurğuladı ki, Azərbaycan Əfqanıstanda sülhməramlı əməliyyatlarda və bu ölkənin iqtisadiyyatının yenidən qurulmasında fəal iştirak edir. Söhbət zamanı Azərbaycanın Ceyrançöl ərazisində NATO-nun minatəmizləmə əməliyyatlarına verdiyi dəstəkdən məmnunluq ifadə olundu. Əfqanıstana daşınan yüklər baxımından Azərbaycanın tranzit ölkə kimi əhəmiyyəti vurğulandı.

Görüşdə qeyd edildi ki, Azərbaycan ilə Avropa İttifaqı arasında uğurlu əməkdaşlıq həyata keçirilir. Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə fikir mübadiləsi aparıldı, danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə məlumat verildi. Regional məsələlərin də müzakirə olunduğu görüşdə Prezident İlham Əliyev NATO-nun baş katibi Yens Stoltenberqi ölkəmizə səfərə dəvət etdi. NATO-nun baş katibi dəvəti minnətdarlıqla qəbul etdi.

## Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin XIII Yüksək Səviyyəli Afina Toplantısı başa çatıb



Altıncı Qlobal Bakı Forumuna hazırlıq məqsədilə Yunanıstanın paytaxtı Afinada keçirilən "Avro-Aralıq dənizi tərəfdaşlığının humanitar problemlərinin həlli" mövzusunda XIII Yüksək Səviyyəli Toplantı noyabrın 23-də işini yekunlaşdırıb.

AZƏRTAC xəbər verir ki, panel iclaslarda Avro-Aralıq dənizi Tərəfdaşlığı çərçivəsində XXI əsrdə sülh üçün humanist cəmiyyətlər, multikulturalizm və mədəniyyətlərarası dialoqa nail olmaq məqsədilə Ortaq Fəaliyyət Planı müzakirə olunub. İclaslarda Avro-Aralıq dənizi tərəfdaşlığının tarixi haqqında məlumat verilib, tərəflərin müxtəlif sahələrdə əməkdaşlığından bəhs olunub, mədəniyyətlərarası dialoqun vacibliyi vurğulanıb. Kimlik məsələsinin əsas problemlərdən olduğunu vurğulayan natiqlər "Avropada yaşamaq yox, onun mədəniyyətini, tolerantlığını qəbul etməklə avropalı olmaq mümkündür", - deyə bildiriblər.



Miqrasiya axınına gəlincə, qeyd olunub ki, Avro-Aralıq dənizi tərəfdaşlığına daxil olan ərazilər Şərq və Qərb arasında strateji mövqedə olduğundan miqrasiya axınları ilə bağlı problemlər bu ərazilərdə daha çox baş verir. İclaslarda problemin həll yolları ilə bağlı təkliflər və ideyalar səslləndirilib. Böhranın aradan qaldırılması üçün Avropanın konkret mexanizm qəbul etməsinin vacibliyi vurğulanıb, dövlətlərin, təşkilatların və insanların verə biləcəyi töhfələr diqqətə çatdırılıb.

Müzakirələrdə Aralıq dənizi ölkələrinin hələ də bir çox problemlərin qarşısında aciz qaldığı, narkotik klanları ilə mübarizənin davam etdiyi bildirilib. Miqrant axınları ilə bağlı problemlərin yaranma səbəbi kimi bəzi Avropa ölkələrində hələ də qaçqınlara qarşı stereotiplərin qalması göstərilib. Tədbirdə dünyada yeni yaradılan enerji layihələrinin əhəmiyyəti, Azərbaycanın bu sahədə verdiyi böyük töhfələr barədə də danışılıb.

Qeyd edək ki, toplantı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin "Marianna V.Vardinoyannis" Fondu ilə əməkdaşlığı çərçivəsində keçirilib. Tədbirdə Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov, Avropa İttifaqı və Aralıq dənizi hövzəsi ölkələrinin nüfuzlu dövlət və siyasi xadimləri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvləri və digər qonaqlar iştirak ediblər.

***Elgün Niftəli***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Afina***

## Azərbaycanın mərhum energetika naziri Natiq Əliyevin xatirəsi anılıb



Noyabrın 23-də SOCAR-da Azərbaycanın mərhum energetika naziri Natiq Əliyevin xatirəsi anılıb. AZƏRTAC xəbər verir ki, əvvəlcə SOCAR-ın, Energetika Nazirliyinin və müxtəlif dövlət qurumlarının rəhbərliyi II Fəxri xiyabana gələrək ictimai-siyasi xadim, mərhum energetika naziri, "Şöhrət" ordenli, Əməkdar Mühəndis Natiq Əliyevin məzarı önünə əklil və güllər qoyaraq onun xatirəsini dərin ehtiramla yad ediblər.

Anım tədbirində çıxış edən SOCAR-ın prezidenti Rövnəq Abdullayev bildirib ki, bu gün mərhum energetika naziri Natiq Əliyevin 70 illik yubileyidir. R.Abdullayev Natiq Əliyevin Azərbaycanın neft-qaz strategiyasının uğurla həyata keçirilməsinin fəal iştirakçılarından biri olduğunu deyib. O qeyd edib ki, Natiq Əliyevin adı "Əsrin müqaviləsi", Bakı-Tbilisi-Ceyhan ixrac neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, "Şahdəniz" layihəsi ilə qırılmaz surətdə bağlıdır: "O, bilikli neft mütəxəssisi idi, neft işinin bacarıqlı təşkilatçısı, Azərbaycanın neft-qaz strategiyasının əsas simalarından biri kimi tanınmışdı". R.Abdullayev Natiq Əliyevin Dövlət Neft Şirkətinin ilk prezidenti kimi hər zaman yad ediləcəyini və xatirəsinin daim əziz tutulacağını bildirib. Deyib ki, bacarıqlı təşkilatçı və təvazökar insan Natiq Əliyevin xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaq. SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə isə deyib: "Ulu öndər Heydər Əliyev 1993-cü il avqustun 9-da Natiq Əliyevə böyük etimad göstərərək onu Dövlət Neft Şirkətinin prezidenti təyin edib. Bu dövrdə Azərbaycan neftinin taleyi ilə bağlı işlərin ağırlığı Dövlət Neft Şirkətinin prezidenti kimi Natiq Əliyevin üzərinə düşmüşdü. Natiq Əliyevin Dövlət Neft Şirkətinə rəhbərlik etdiyi dövrdə 24 mühüm müqavilə imzalanıb". Akademik qeyd edib ki, Natiq Əliyevi təkcə Azərbaycanda deyil, Türkiyədə, Rusiyada, ABŞ-da, Böyük Britaniyada, dünyanın bir çox ölkələrində də yaxşı tanıyırdılar. "O, daim sadə, səmimi və mehriban bir insan kimi xatirələrdə qalacaq. Sadəlik onun həyat tərzi idi. Natiq Əliyevi tanıyanların qəlbində o həmişə bu cür də yaşayacaq", - deyə X.Yusifzadə əlavə edib.

Milli Məclis sədrinin müavini, təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov da Natiq Əliyevlə bağlı xatirələrini bölüşüb. O, Natiq Əliyevin həmişə Azərbaycanın maraqları uğrunda çalışdığını deyib. Qeyd edib ki, Natiq Əliyev hər kəsin qəlbində xalqına, dövlətinə şərəflə xidmət etmiş şəxs kimi qalacaq.

Sonra tədbir iştirakçıları "CBC" kanalının hazırladığı və mərhum energetika naziri Natiq Əliyevə həsr edilən sənədli filmi izləyiblər. Xatırladaq ki, Natiq Əliyev bu il iyunun 9-da, ömrünün 70-ci ilində həyatdan köçüb.

## Azərbaycan ilə Pakistan arasında hərbi sahədə əməkdaşlıq müzakirə olunub



Noyabrın 23-də Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, general Zübair Mahmud Hayat ilə görüşüb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general Z.M.Hayatın rəhbərlik etdiyi nümayəndə heyəti əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub. Görkəmli oftalmoloq -alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə güllər düzülüb. Şəhidlər xiyabanına gələn qonaqlar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar. Müdafiə Nazirliyində keçirilən görüşdə Z.Həsənov xalqlarımız arasında ənənəvi dostluq və qarşılıqlı etimadın, eləcə də Azərbaycan-Pakistan əlaqələrinin yüksələn xətlə inkişaf etməsindən və strateji tərəfdaşlığın səviyyəsindən məmnunluğunu bildirib. Regiondakı hərbi-siyasi vəziyyətə toxunan müdafiə naziri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verib. Pakistanın münaqişənin həllində Azərbaycanın ədalətli mövqeyini beynəlxalq təşkilatlarda da dəstəkləməsinə görə minnətdarlıq ifadə edilib. Z.Həsənov vurğulayıb ki, Azərbaycan da Pakistanın ərazi bütövlüyünü dəstəkləyir.

Görüşdə iki ölkə arasında təhlükəsizlik, hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın inkişafı, eləcə də Hərbi Hava və Hərbi Dəniz qüvvələri arasında əlaqələrin genişləndirilməsinin vacibliyi xüsusi vurğulanıb. Sonra Pakistan nümayəndə heyəti Silahlı Qüvvələrin Baş Qərargahının inzibati binasında ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən muzeyi ziyarət edib, xidməti otaqlardakı iş şəraiti ilə tanış olub.

## Azərbaycan və Benilüks ölkələri arasında xidməti pasport sahiblərinin viza tələblərindən azad edilməsi haqqında Saziş imzalanıb



Noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri çərçivəsində "Azərbaycan Respublikası Hökuməti ilə Benilüks dövlətləri hökumətləri arasında xidməti pasport sahiblərinin viza tələblərindən azad edilməsi haqqında Saziş" imzalanıb.

AZƏRTAC xəbər verir ki, Saziş Benilüks ölkələrinin Brüsseldə yerləşən Baş Katibliyinin binasında, Azərbaycanın Belçikadakı səfiri Fuad İsgəndərov, Niderlandın Belçikadakı səfiri xanım Maryem Van den Heuvel, Belçikanın Avropa İttifaqı yanında daimi nümayəndəsi Fransua Ru, Lüksemburqun Avropa İttifaqı yanında daimi nümayəndəsi Jorj Friden tərəfindən imzalanıb. Sənədin imzalanması minlərlə xidməti pasport sahibinin bu ölkələrin ərazilərinə vizasız gediş-gəlişi üçün imkan yaradacaq.

## Ziyad Səmədzadə: Gələn il üçün yaşayış minimumu 11 faiz artırılacaq



2018-ci il üçün yaşayış minimumu ölkə üzrə 173 manat, əmək qabiliyyətli əhali üçün 183 manat, pensiyaçılar üçün 144 manat, uşaqlar üçün 154 manat müəyyənləşdirilib. AZƏRTAC xəbər verir ki, bu barədə Milli Məclisin bu gün keçirilən plenar iclasında iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə "Azərbaycan Respublikasında 2018-ci il üçün yaşayış minimumu haqqında" qanun layihəsinin müzakirəsi zamanı deyib. Ziyad Səmədzadə bildirib ki, 2018-ci il üçün yaşayış minimumu bu ilin təsdiq olunmuş göstəricisindən 11 faiz çoxdur.

# Milli Məclisdə dövlət büdcəsi zərfinə daxil olan sənədlərin müzakirəsi başa çatıb

***Noyabrın 23-də Milli Məclisin plenar iclasında 2018-ci il üçün dövlət büdcəsi zərfinə daxil olan sənədlərin müzakirəsi davam etdirilib.***

AZƏRTAC xəbər verir ki, Milli Məclisin sədri Oqtay Əsədov iclasa Milli Məclisin və Hesablama Palatasının 2018-ci il üçün xərclər smetaları haqqında məsələlərin müzakirəsi ilə başlanılmasını təklif edib.



Əvvəlcə Milli Məclisin İşlər idarəsinin müdiri Firudin Hacıyev parlamentin gələn ilki xərclər smetası barədə məlumatı diqqətə çatdırıb. Bildirilib ki, gələn ilin dövlət büdcəsində Milli Məclisin və onun Aparatının saxlanılması üçün 24 milyon 232 min 055 manat vəsait nəzərdə tutulub. Xərclər smetasının ümumi dəyərinin 68,8 faizini əməkhaqqı fondu və əməkhaqqı ilə əlaqədar ayırmalar təşkil edir.

Sonra Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Palatanın 2018-ci il üçün xərclər smetası barədə məlumat verib. Bildirilib ki, dövlət büdcəsindən Hesablama Palatasının gələn ilki xərclər smetası üçün ümumilikdə 3 milyon 852 min manat vəsait nəzərdə tutulur. Bu, 2017-ci ilin proqnoz göstəricisi ilə müqayisədə 0,8 faiz çoxdur. Palata üzrə xərclər smetasının ümumi məbləğinin 82 faizi əməyin ödənilməsini təşkil edir. Qeyd olunub ki, Hesablama Palatasının təqdim etdiyi xərclər smetası onun fəaliyyətini səmərəli təşkil etməyə və nəzarət tədbirlərinin keyfiyyətini yüksəltməyə imkan verəcək.

"Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2018-ci il büdcəsi haqqında" qanun layihəsi barədə Milli Məclisin əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli məlumat verib. Komitə sədri vurğulayıb ki, ölkədə həyata keçirilən sosial-iqtisadi siyasət strategiyası əsas inkişaf proqramlarının uğurlu icrasına təminat verir.

Hadi Rəcəbli bildirib ki, "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2018-ci il büdcəsi"ndə mədaxil və məxaric xərcləri 3 milyard 578 milyon 760 min manat təşkil edir. Gəlirlərin böyük bir qismi - 2 milyard 300 milyon manatı məcburi dövlət sığorta haqları hesabına formalaşır. Bu məbləğin 1 milyard 400 milyon manatı büdcədən maliyyələşən təşkilatlardan deyil, digər sığorta edənlər tərəfindən ödənilir. Fiziki şəxslərdən yığılan sığorta haqları 60 milyon manata çatdırılıb. Bu da onu göstərir ki, ötən illə müqayisədə bütün göstəricilər üzrə büdcədə müsbət tendensiyalar, artımlar özünü göstərir. Vurğulanıb ki, sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının məxaric hissəsinin təxminən 3,5 milyard manatı yəni 98 faizə qədəri bilavasitə əhaliyə ödənişlər hesabına olacaq.

Qeyd olunub ki, gələn ilin büdcə zərfinə yeni bir sənəd -"İşsizlikdən sığorta fondunun büdcəsi" haqqında qanun layihəsi də əlavə edilib. Bu qanun yeni iş yerlərinin yaradılması, işsizliyin qarşısının alınması və bütövlükdə ölkə üzrə məşğulluq sisteminin köklü təkmilləşdirilməsi sahəsində irəliləyişlərə xidmət edir. Son iki ildə orta və kiçik sahibkarlığın inkişafı ilə bağlı aparılan davamlı siyasət ölkəmizdə 100 minlərlə yeni iş yerlərinin yaradılmasına xidmət edib, kənd təsərrüfatı, emal, turizm və istirahət biznesində sahibkarlıq fəaliyyəti geniş vüsət alıb. Bu ilin aprel ayında dövlətimizin başçısının Sərəncamı ilə ilk dəfə respublikamızda özünüməşğulluq sistemi formalaşıb və bu məqsədə 16 milyon manat vəsait ayrılıb. Məşğulluq xidmətinin fəaliyyəti köklü olaraq dəyişdirilib, burada yeni faydalı istiqamətlər müəyyənləşdirilib.

İşsizlikdən Sığorta Fondunun 2018-ci il büdcəsi 90 milyon manata yaxındır. Fondun mədaxil hissəsi büdcədən maliyyələşən təşkilatlar hesabına bu məbləğin 17 milyon 726 min manatını təşkil edəcək. Fondun başlıca məqsədi aktiv məşğulluğun təmin olunmasıdır. Bu büdcənin xərclərinin 35,8 milyon manatı bilavasitə özünüməşğulluq tədbirlərinin təşkilinə yönələcək. Peşə hazırlığı, peşə yönümünün dəyişməsinə 1,6 milyon, haqqı ödənilən ictimai işlərin təşkilinə isə 1,8 milyon manat vəsait ayrılacaq.

İclasda müzakirəyə çıxarılmış məsələlərlə əlaqədar çıxış edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini İdris İsayev bildirib ki, hazırda Prezident İlham Əliyevin ölkənin sosial müdafiə sistemi qarşısında qoyduğu əsas vəzifələr əhatəliliyin maksimum dərəcədə artırılması, səmərəliliyin yüksəldilməsi, ünvanlılığın və şəffaflığın tam təmin olunmasıdır.

Onun sözlərinə görə, ölkəmizdə dayanıqlı inkişafın təmin edilməsi istiqamətində aparılan sürətli islahatlar qısa müddətdə öz uğurlu nəticəsini verib, ölkəmizin yeni şəraitə uyğun tərəqqisi üçün etibarlı zəmin yaranıb. Qeyd olunub ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun büdcəsi növbəti ildə ölkə əhalisinin əhəmiyyətli bir hissəsini təşkil edən pensiyaçılar üzrə sosial ödənişlərin icrasında vacib rol oynayacaq. Fondun gələn il üçün büdcə layihəsinin tərtibi çoxfaktorlu proqnozlaşdırma modellərinə söykənir. Nazir müavini bildirib ki, cari ilin ötən dövründə ölkə iqtisadiyyatının inkişaf meyilləri, növbəti illərdə sosial-iqtisadi inkişafın əsas proqnozları, əhalinin gəlirləri, məşğulluq göstəriciləri, demoqrafik inkişaf trendləri və digər amillər əsas götürülüb.

Fasilədən sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə "Azərbaycan Respublikasının 2018-ci il üçün yaşayış minimumu haqqında" qanun layihəsi barədə məlumat verib. Bildirilib ki, hesablamalara görə 2018-ci il üçün ölkə üzrə yaşayış minimumu proqnozu 173 manat müəyyən edilir. Komitə sədri ildən-ilə ölkə üzrə yaşayış minimumu göstəricisinin artmasını yüksək qiymətləndirib.

İclasda çıxış edən deputatlar Vahid Əhmədov, Əli Məsimli, Zahid Oruc, Rüfət Quliyev, Qüdrət Həsənquliyev, Siyavuş Novruzov, Qənirə Paşayeva, Musa Quliyev, Kamilə Əliyeva, Tahir Kərimli, Əflatun Amaşov, Tahir Mirkişili, Sədaqət Vəliyeva, Fazil Mustafa, Elman Nəsirov gələn ilin büdcə zərfinə daxil olan sənədlər barədə fikirlərini bildiriblər, qeyd və təkliflərini veriblər.

Sonra Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini İdris İsayev, iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova deputatları maraqlandıran suallara cavab veriblər.

İclasda Hadi Rəcəbli "Azərbaycanın 2018-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsini təqdim edib. Bildirilib ki, cari ildə olduğu kimi, gələn ildə də ölkə üzrə ehtiyac meyarının həddi 116 manat nəzərdə tutulub.

İclasa yekun vuran Milli Məclisin sədri Oqtay Əsədov bildirib ki, bununla da müzakirələr başa çatır. Məlumat verib ki, dekabrın 1-də keçiriləcək növbəti iclasda ölkənin 2018-ci il üçün dövlət büdcəsi layihəsi və büdcə zərfinə daxil olan digər sənədlər səsverməyə çıxarılacaq.

# Sədaqət Vəliyeva: "2018-ci ildə də dövlətin prioriteti iqtisadi inkişafın davamlılığı və xalqımızın rifahının daha da yaxşılaşması olacaq"

***"Son illərdə dünyada iqtisadi proseslərin xüsusiyyətləri kifayət qədər dinamik formada dəyişməkdədir. Belə bir şəraitdə müşahidə edilən əsas meyillər kimi enerji daşıyıcılarının qiymətindəki nisbi sabitlik, dünya üzrə iqtisadi templərinə təsir edəcək iqtisadi risklərin spektrinin genişlənməsi, geosiyasi proseslərin yaratdığı təlatümlər və s. qeyd edilməlidir. Bütün bunların fonunda isə, biz Azərbaycanda dinamik inkişafın göstəricilərini də müşahidə etməkdəyik. Elə bu göstəricilər də öz əksini 2018-ci ilin dövlət büdcəsinin vəziyyətində tapmaqdadır". Bunu Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri və Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.***



Sədaqət Vəliyeva bildirib ki, 2018-ci il üçün dövlət büdcəsinin layihəsi ölkəmizin tərtib olunmuş makroiqtisadi proqnoz göstəricilərinin, habelə, dünya iqtisadiyyatında gözlənilən meyillərin təhlili əsasında hazırlanıb: "Təqdim olunan 2018-ci ilin dövlət büdcəsinin layihəsi yeni makroiqtisadi şəraitin yaratdığı yeni iqtisadi təlatümləri və reallıqları, habelə, ölkəmizin üzləşdiyi strateji çağırışları nəzərə alır, Azərbaycan Prezidenti İlham Əliyevin, ənənəvi olaraq, sosialyönümlü siyasətinin davam etdirilməsi üçün müvafiq maliyyə təminatını yaradır. Gələn ilin dövlət büdcəsinin başlıca istiqamətləri isə ölkə iqtisadiyyatının inkişaf tempinin qorunub-saxlanmasını, sosial-iqtisadi islahatların daha dinamik şəkildə davam etdirilməsini, əhalinin maddi rifahının təmin olunmasını və sosial şəraitinin yaxşılaşmasını, investisiya qoyuluşlarının həyata keçirilməsini, iqtisadiyyatın diversifikasiyasını və digər tədbirləri özündə əks etdirəcək. Aydın görünür ki, strateji inkişaf xəttinə və ölkədə yaranmış makroiqtisadi mühitə uyğun olaraq, dövlət büdcəsi gəlirlərinin stabilləşdirilməsinə, qeyri-neft sektorundan və digər real mənbələrdən büdcəyə əlavə daxilolmaların müəyyən edilməsinə, əhalinin sosial rifahının yaxşılaşdırılmasına, aztəminatlı insanların sosial müdafiəsinin gücləndirilməsinə, onların gəlirlərinin və məşğulluq səviyyəsinin yüksəldilməsinə, qeyri-neft sektorunun, sahibkarlığın inkişaf etdirilməsinə, dövlətin müdafiə potensialının artırılmasına, iqtisadi, enerji, nəqliyyat, ərzaq və ekoloji təhlükəsizliyin təmin olunmasına xüsusi diqqət yetirilir".

Millət vəkili aparılmış təhlillərə əsaslanaraq bildirib ki, 2018-ci ilin büdcəsində gəlirlər ötən ilə nəzərən təxminən 20 faiz artıb və 20 milyard 127 milyon manat təşkil edir: "Həmçinin, müqayisə apardıqda, görürük ki, dövlət büdcəsində gələn il üçün nəzərdə tutulmuş sosial müdafiə xərcləri 2017-ci illə müqayisədə 193 milyon manat çoxdur. Yəni gələn il də dövlət büdcədə sosial xərclərə daha çox yer verir. Bu mənada, hökumət vətəndaşların sosial rifah halını nəzərə alaraq maaş və təqaüdlərin, eyni zamanda, digər sosial ödənişlərin artırılması planını da həyata keçirəcək. Bütün bunlarla yanaşı, yaşayış minimumunun artırılaraq, 173 manata çatdırılması da, müəyyən mənada, insanların gəlirlərinin artırılmasına təsirini göstərəcək".

Sədaqət Vəliyeva əlavə edib ki, 2018-ci ildə də dövlət büdcəsinin sosialyönümlüyünün davam etdirilməsi, əhalinin rifah halının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi əsas prioritet istiqamət olaraq saxlanılacaq: "2018-ci il dövlət büdcəsi layihəsində gəlir və xərclərin təhlili göstərir ki, növbəti il üçün əsas maliyyə planı xalqımızın rifahının daha da yaxşılaşmasına və ölkəmizin qüdrətinin yüksəlməsinə, iqtisadi inkişafın davamlılığına xidmət edəcək".

## Bəhruz Quliyev: "Avropanın ikili standartları idmanda da özünü göstərdi"



"25 yaşlı "Qarabağ" klubunun 112 illik böyük futbol təcrübəsi olan ingilis klubu ilə baş-başa gəlməsinin özü böyük futbol hadisəsidir. Bu mənada Azərbaycanın hər bir futbol azarkeşini təbrik edirəm. Şəhəri işğal altında olan futbol klubunun Avropada qazandığı uğurlar, Çempionlar Liqasına vəsiqə qazanması təkcə Qurban Qurbanovun, təkcə "Qarabağ"ın deyil, bütün azərbaycanlıların fəxarət hissi keçirdiyi olaydır". Bunu SİA-ya açıqlamasında "SƏS" Media Qrupunun rəhbəri Bəhruz Quliyev deyib.

Media Qrupunun rəhbərinin sözlərinə görə, "Qarabağ" klubunun Çempionlar Liqasında iştirakı Azərbaycan futbolunda yeni bir mərhələnin başlanğıcıdır: "Mən komandamızı ən yüksək oyun nümayişinə görə təbrik edirəm. Biz indiki halda "Qarabağ"dan nəticə gözləməməli, sadəcə, komandamızın Çempionlar Liqası kimi mötəbər bir turnirdə olmasından zövq almağa çalışmalıyıq. Bütün bunlar bir yana, "Qarabağ" futbol oynamağı bacardığını bütün Avropaya sübut edib. Azərbaycan demək olar ki, qrup çərçivəsində keçirdiyi bütün görüşlərdə çox yüksək nəticə göstərdi. Komandamız Avropaya bir futbol dərsi keçdi. Nəticələrindən asılı olmayaraq "Qarabağ"ın keçirdiyi oyunlarda qələbə qazandığını düşünürəm". "Qarabağ" - "Çelsi" oyunu zamanı hakimin komandamıza qarşı ədalətsiz qərarına da münasibət bildirən Bəhruz Quliyev bildirib ki, təəssüflər olsun ki, Avropanın Azərbaycana qarşı sərgilədiyi ikili standartlar idmanda da özünü göstərdi: "İdman bir növ idmançıların gücünün göstəricisidir. Amma bu o demək deyil ki, buna qarşı ciddi şəkildə haqsızlıq nümayiş etdirəsən. Bu artıq dözülməzdir. Hətta Çempionlar Liqasının qrup mərhələsində keçirilən "Qarabağ" - "Atletiko" oyununda hakimin komandamıza qarşı haqsızlığı İspaniya mətbuatında da müzakirə olunmuşdu, rəqib azarkeşlər hakim ədalətsizliyinə etiraz etmişdilər. İndi də İngiltərənin məşhur "The Sun" qəzeti "Qarabağ" - "Çelsi" oyununda ilk penaltinin mübahisəli olduğunu və qırmızı vərəqənin isə yanlış verildiyini yazıb. Nəşr xəbərə "Çılğın qərar" başlığını verib və hakimin qərarına hətta "Çelsi" azarkeşlərinin də təəccübləndiyini vurğulayıb. Təəssüflər olsun ki, "Çelsi" klubunun baş məşqçisi Antonio Konte də hakimin bu ədalətsiz qərarına münasibət bildirməkdən boyun qaçıraraq epizodu görmədiyini deməklə, əslində görməzdən gəldiyini büruzə verib. Halbuki hər kəs bilir ki, o peşəkar məşqçidir və meydançada baş verənləriin hər anını izləyir".

Bəhruz Quliyev Azərbaycan ictimaiyyətinin, ziyalıların, futbol azarkeşlərinin redaksiyamıza daxil olan çoxsaylı müraciətlərinə və zənglərinə də aydınlıq gətirib: "Mən onların xahişini də nəzərə alaraq geniş auditoriya adından həmin hakimin düz gözünün içinə tüpürürəm. Ona görə ki, həm komandanın kapitanı kimi, həm də ona qarşı olan ədalətsiz qərara görə Rəşad Sadıqov tərəfindən hakimə kəskin etiraz bildirməli idi. Amma o bir idman mədəniyyəti nümayiş etdirdi. Bütün bunlara baxmayaraq mən bir daha "Qarabağ" klubunu qazandığı bütün qələbələr münasibətilə təbrik edirəm".

## Nazir müavini: "Pensiyaların orta aylıq məbləği 6,9 faiz artacaq"



"Gələn il əmək pensiyaları üzrə xərclərdə 193,2 mln. manat artım, məcburi dövlət sosial sığorta haqları hesabına verilən müavinətlər üzrə 16,3 mln. manat azalma və digər xərclər üzrə - 1,9 mln. manat artım gözlənilir. Bu artımların və azalmanın hər biri üzrə əsaslandırılmış hesablamalar mövcuddur". SİA-nın xəbərinə görə, bunu Milli Məclisin bu gün keçirilən plenar iclasında 2018-ci il üzrə büdcə zəfinə daxil olan layihələrinin müzakirəsi zamanı əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini İdris İsayev Dövlət Sosial Müdafiə Fondunun 2018-ci il üzrə büdcəsi haqqında məlumat verərkən deyib.

O bildirib ki, 2018-ci ildə əmək pensiyaları üzrə xərclər əhaliyə ödənişlərin 97,5%-ni təşkil edərək 3 mlrd. 407 mln. manat proqnozlaşdırılır: "Pensiya xərclərində artımın 178 mln. manatı cari ilin 1 iyul tarixindən qüvvəyə minmiş yeni qaydaya əsasən qulluq stajına görə əlavə çıxılmaqla əmək pensiyalarının bütün məbləğinin ölkə üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq indeksləşdirilməsi üçün nəzərdə tutulub" Onun sözlərinə görə, Fondun büdcəsində nəzərdə tutulan pensiyaçıların sosial müdafiəsi tədbirlərinin reallaşdırılması nəticəsində növbəti ildə əmək pensiyalarının orta aylıq məbləği 6,9% artaraq 216,5 manat təşkil edəcək. Nazir müavini əlavə edib ki, 2018-ci ildə məcburi dövlət sosial sığorta haqları hesabına verilən müavinətlərin proqnozu 88,1 mln. manatdır ki, bu da cari ilin büdcəsi üzrə proqnoza nisbətən 15,6% və ya 16,3 mln. manat azdır. İ.İsayev vurğulayıb ki, bu azalma "İşsizlikdən sığorta haqqında" qanununun qüvvəyə minməsi ilə əlaqədar 2018-ci ildən etibarən işsizliyə görə müavinət xərclərinin Fondun büdcəsi üzrə sosial sığorta haqları hesabına maliyyələşən xərclərin tərkibindən çıxarılaraq işsizlikdən sığorta fondunun büdcəsinə keçirilməsi ilə bağlıdır.

"2018-ci ildə digər xərclər 83,7 milyon manat məbləğində nəzərdə tutulur ki, bu da 2017-ci ilin proqnozuna nisbətən 2,3 faiz və ya 1,9 milyon manat çoxdur. Bu sahədə xərc artımı tətbiq olunan proqram təminatlarının yenilənməsi, bu məqsədlə zəruri avadanlıqların alınması üçün Fondun aparatının saxlanması üzrə nəzərdə tutulan 1,5 milyon manatlıq artım, eləcə də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası vasitəsilə həyata keçirilən xərclərdə proqnozlaşdırılan 0,9 milyon manatlıq artım və pensiya və müavinətlərin əhaliyə çatdırılması üzrə bank xərclərində proqnozlaşdırılan 0,5 milyon manat məbləğində azalma ilə bağlıdır", - deyə nazir müavini vurğulayıb.

## Azərbaycan ilə Pakistan arasında strateji tərəfdaşlıq uğurla inkişaf edir



23-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikası Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, general Zübair Mahmud Hayatın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Pakistan arasında siyasi, iqtisadi, mədəni sahələrdə strateji tərəfdaşlığımızın uğurla inkişaf etdiyini məmnunluqla xatırladan tərəflər hərbi-sənaye sahəsində əlaqələrə də böyük əhəmiyyət verildiyini bildiriblər. İqtisadi və müdafiə sahələrində əməkdaşlığın hər iki ölkənin qüdrətinin artmasına xidmət etdiyi vurğulanıb, bu istiqamətdə qarşılıqlı faydalı münasibətlərin daha da dərinləşdirilməsi, hərbi-texniki və kadr hazırlığı, şəxsi heyətin təhsili, məqsədyönlü təlimlərin və təcrübə mübadilələrinin keçirilməsi, müdafiə sənayesi sahəsində mövcud potensialdan səmərəli yararlanmağın vacibliyi diqqətə çatdırılıb.

Dünyada gedən qlobal proseslər fonunda Ermənistanın separatizmə söykənən işğalçılıq siyasətinin regionda sülhə və sabitliyə təhlükə yaratdığını deyən Baş nazir Artur Rasi-zadə, Pakistanın bütün beynəlxalq tədbirlərdə Azərbaycanın haqq işini dəstəklədiyini minnətdarlıqla qeyd edib.

Səmimi görüşə görə Azərbaycanın Baş nazirinə təşəkkürünü bildirən Pakistan İslam Respublikası Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, general Zübair Mahmud Hayat Pakistan dövlətinin bundan sonra da xalqımızın ədalətli mübarizəsində daim Azərbaycanın yanında olacağını, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız beynəlxalq hüquq normaları çərçivəsində Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında həllinin vacibliyini vurğulayıb. Görüşdə iqtisadi və hərbi əməkdaşlığın daha da inkişaf etdirilməsinə dair qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

## Akademik Akif Əlizadə: Ölkəmizdə müasir texnologiyalara əsaslanan yeni istehsal müəssisələri yaradılır



Hazırda ölkəmizdə sənayeləşmə siyasətinə uyğun olaraq innovativ və müasir texnologiyalara əsaslanan yeni istehsal müəssisələri yaradılır. "Millers Oils Azerbaijan" MMC-nin təsis edilməsi Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) bu sahədəki fəaliyyətində növbəti addımdır.

AZƏRTAC xəbər verir ki, bunu AMEA-nın prezidenti, akademik Akif Əlizadə Bakıda "Millers Oils Azerbaijan" MMC-nin istehsal kompleksinin açılış mərasimində deyib. AMEA-nın rəhbəri "Millers Oils Ltd" şirkəti ilə əlaqələri yüksək dəyərləndirib, birgə əməkdaşlığın tətbiqi elmi araşdırmaların bazarın tələbatına uyğunlaşdırılması baxımından əhəmiyyətli olduğunu bildirib. Qeyd edək ki, "Millers Oils Azerbaijan" MMC-nin istehsal kompleksi AMEA və Böyük Britaniyanın "Millers Oils Ltd" şirkəti tərəfindən təsis edilib.

## Məkkə və Mədinədəki müqəddəs məkanlarda foto və video çəkilişinə qadağa qoyulub



Səudiyyə Ərəbistanı Krallığının Xarici İşlər Nazirliyi Məkkə və Mədinə şəhərlərində müəyyən müqəddəs məkanlarda ibadətə maneçilik törədən foto və video çəkilişini qadağa edib. AZƏRTAC Anadolu agentliyinə istinadla xəbər verir ki, buna məhəl qoymayan ziyarətçilər qanun pozuntusuna görə cərimələnəcək, onlardan istifadə etdikləri cihazlar alınacaq. Qadağa, həmçinin media nümayəndələrinə də aid edilib. Bildirilir ki, məqsəd müqəddəs məkanları qorumaq və təhlükəsizliyi təmin etməkdən ibarətdir.

## İspaniya universitetində Azərbaycan ailə və təhsil dəyərləri müzakirə olunub

AZƏRTAC xəbər verir ki, İspaniyanın Sevilya Universitetinin təhsil və elm fakültəsində "Azərbaycan və İngiltərədə təhsil sistemi və ailə tərbiyəsi" mövzusunda konqres keçirilib. Konqresdə ispan filologiyası üzrə təhsil alan azərbaycanlı tələbə Yaqut Novruzova da çıxış edib. O, çıxışında Azərbaycanın təhsil sistemi, habelə ailə dəyərləri barədə geniş məlumat verib. Tədbir iştirakçıları Azərbaycanda müəllim-tələbə münasibətlərinin qarşılıqlı hörmət və ehtiram əsasında qurulmasını yüksək dəyərləndiriblər.

Daha azad şərtlər daxilində təhsil alan avropalı tələbələr azərbaycanlı gəncin çıxışını maraqla qarşılayıblar. Y.Novruzova diqqətə çatdırıb ki, onun ölkəsində müəllimə hörmət ailədən başlayır. Müəllim uşaqlar üçün ikinci valideyn hesab olunur.

## Erməni-azərbaycanlı münaqişələrinə dair monoqrafiya çapa hazırlanıb

Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyinin elmi katibi, tarix üzrə fəlsəfə doktoru Fərhad Cabbarov Rusiyanın və Gürcüstanın arxiv və kitabxanalarında XX əsrin əvvəllərində erməni-azərbaycanlı münaqişələrinə dair araşdırmalar aparıb, əhəmiyyətli elmi faktlar və mənbələr əldə edib. AZƏRTAC-a müsahibəsində Fərhad Cabbarov bildirib ki, Rusiyanın və Gürcüstanın arxiv və kitabxanalarında XX əsrin əvvəllərində, xüsusilə 1905-1906-cı illərdə erməni-azərbaycanlı münaqişələri haqqında olduqca önəmli materiallar qorunub saxlanılır. "Həmin arxiv və kitabxanalardan əldə etdiyim çoxlu elmi mənbələr və əvvəllər apardığım tədqiqatlar əsasında "Cənubi Qafqazda erməni ekstremizmi: XIX əsrin II yarısı - XX əsrin əvvəlləri" adlı monoqrafiya yazıb çapa hazırlamışam", - deyə alim bildirib. Yaxın günlərdə nəşr olunacaq kitabın elmi redaktoru, akademik Nailə Vəlixanlıdır.

# "Bu gün artıq Azərbaycan diktə edən tərəfdir"

## *Sergey Lavrovun Dağlıq Qarabağ münaqişəsinin həllində Rusiyanın maraqlı olduğunu inamlı tərzdə bəyan etməsi problemin həllinə ümidləri artırıb*

***Məlum olduğu kimi, Rusiya xarici işlər naziri Sergey Lavrov regiona səfəri çərçivəsində Bakıda hökumət və dövlət rəsmiləri ilə bir sıra görüşlər keçirib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 19-da Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Qəbulda S.Lavrovun Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Rusiyanın maraqlı olduğunu inamlı şəkildə bəyan etməsi problemin həllinə ümidləri artırıb. Ümumilikdə, son vaxtlar Rusiyanın danışıqların intensivləşdirməsində bir qədər fəallıq göstərməsi də bunu deməyə əsas verir. Söhbət etdiyimiz müsahiblərimiz münaqişənin sülh yolu ilə həllində yeni imkanların yarandığını bildirdilər.***

Millət vəkili Tahir Rzayev:
**"Dağlıq Qarabağ münaqişəsinin həlli ilk növbədə, Rusiyadan çox asılıdır"**



- Dağlıq Qarabağ münaqişəsinin həlli, ilk növbədə, Rusiyadan çox asılıdır. Çünki o vaxtlar torpaqlarımız işğal olunanda, rus əsgərləri bu prosesdə iştirak ediblər. Bu gün artıq sanksiyalar səbəbindən, Rusiya dünyadan təcrid olunmaqdadır. Demək olar ki, Qərb və Avropa ölkələri tərəfindən Rusiyaya qarşı da çox böyük təzyiqlər var. Rusiya bunu bilir ki, müəyyən məsələləri həll etməsə, onun nüfuzu aşağı düşər və təklənə bilər. Rusiya ilə Azərbaycan müttəfiq olub və iki dövlət arasında qarşılıqlı əməkdaşlıq münasibətləri mövcuddur. Bütün regional və beynəlxalq tədbirlərdə Azərbaycan Rusiyanın mövqeyini dəstəkləyib. Artıq Rusiyada bunu anlamağa başlayıblar. Digər tərəfdən, Rusiyanın Türkiyə ilə əlaqələrinin möhkəmlənməsi buna bir stimul verir ki, Dağlıq Qarabağ münaqişəsi həll olunsun. Çünki son vaxtlar Türkiyənin Rusiya ilə qarşılıqlı əməkdaşlığı, səfərlər, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın bu məsələni dəfələrlə gündəmə gətirməsi və Vladimir Putinlə danışıqlarında bu məsələni qabartması əsas verir ki, münaqişə həll olunsun. Artıq Rusiya, Azərbaycan, Türkiyə və İran, ümumiyyətlə, qonşu dövlətlərin çox yaxın bir əməkdaşlığı yaranıb. Bu əməkdaşlığın genişlənməsi üçün Dağlıq Qarabağ münaqişəsi həll olunmalıdır. Əlbəttə ki, bir çox məsələlər var ki, bunun həlli Azərbaycandan, Türkiyədən və İrandan asılıdır. Bu dövlətlər qarşılıqlı şəkildə bir-birini başa düşməsələr, bir-birlərinə kömək etməsələr, bunların ittifaqı o qədər möhkəmlənə bilməz. Artıq Rusiya da bunu bilir. Eləcə də, Rusiyanın xarici işlər naziri də bilir. Bu baxımdan da, Sergey Lavrovun münaqişənin həllində maraqlı görünməsi Rusiya dövlətinin siyasətidir. Çünki Sergey Lavrovun özü müəyyən məsələlərdə daim ermənilərin tərəfində olub və ermənilərə müəyyən dəstək verib. Bir sözlə, Rusiya xarici işlər naziri Sergey Lavrovun regiona səfəri çərçivəsində Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə görüşməsi və Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Rusiyanın maraqlı olduğunu inamlı şəkildə bəyan etməsi, birinci növbədə, Rusiya prezidentinin özünün təklifidir ki, bu münasibətlər yaxşılaşsın və Dağlıq Qarabağ münaqişəsi həll olunsun, regionda sülh və əmin-amanlıq təmin olunsun, Rusiya, Azərbaycan və Türkiyənin birgə ittifaqı yaransın.

Millət vəkili Azər Badamov: **"Regionun sabitliyi üçün bu problem tezliklə həll olunmalıdır"**



- Rusiya xarici işlər naziri Sergey Lavrovun Azərbaycana səfəri Rusiya ilə Azərbaycan arasında strateji əməkdaşlığın gələcək perspektivləri ilə əlaqədardır. Azərbaycan ilə Rusiya arasındakı iqtisadi əlaqələr inkişaf mərhələsindədir. Ölkələrarası ticarət dövriyyəsi dinamik artımdadır. Təbii ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunur və ümumi bir məxrəcə gəlmək ətrafında fikir mübadiləsi də aparılır. Çünki Cənubi Qafqazın ən böyük və hər an alovlana biləcək problemi Azərbaycanın işğaldakı torpaqları ilə bağlı ola bilər. Ona görə də, regionun sabitliyi üçün bu problem tezliklə həll olunmalıdır. Lavrov Azərbaycandan sonra Ermənistana da səfər edəcək. Orada da münaqişənin həlli ilə bağlı danışıqlar aparacaq. Münaqişənin düyününün açılması Rusiyanın əlindədir və düşünürəm ki, Rusiya ermənilərə ciddi təsir metoduna keçərsə, məsələ də öz həllini tapar və regiona sabitlik gələr.

Politoloq Arzu Nağıyev:
**"Sarkisyanın Moskvaya çağırılması, Sergey Lavrovun regiona səfəri müəyyən mətləblərdən xəbər verir"**




- Rusiya xarici işlər naziri Sergey Lavrovun səfəri ilə bağlı, bir müddət öncə, anonslar verildi. Bildirildi ki, regiona səfərlər çərçivəsində əsas məsələ həm ATƏT-in Minsk Qrupunda təmsil edilən dövlət kimi Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həm Bakıda, həm də Yerevanda görüşlər keçirilib müzakirələr aparılacaqdır. Sergey Lavrov Azərbaycan Prezidenti İlham Əliyevlə görüş zamanı münaqişənin həllində Rusiyanın maraqlı olduğunu bildirdi. Bununla da, bir daha gəlişinin məqsədini nümayiş etdirdi. Bundan sonra Sergey Lavrovun Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyaraovla da görüşü baş tutmalı və Yerevana səfər etməlidir. Zənnimcə, bu görüşlərin keçirilməsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Rusiya prezidenti Vladimir Putinin Soçi görüşlərinin də təsiri olub. Sarkisyanın Moskvaya çağırılması və Sergey Lavrovun regiona səfəri müəyyən mətləblərdən xəbər verir. Sergey Lavrov bu görüşlərdə, yəqin ki, Kazan və Sankt-Peterburq görüşlərinə uyğun olaraq danışıqlar apara bilər. Bizim tərəfin əsas şərti və tələbi ərazi bütövlüyümüz və işğalçı ordunun qeyd-şərtsiz ərazilərimizi tərk etməsidir. Qərb də bilir ki, bu məsələ birbaşa Rusiya ilə bağlıdır və o, açar fiqurdur. Ona görə də, əsas rolu münaqişənin həllində Rusiya oynamalıdır. Dolayı yolla bu haqda cənab Rəcəb Tayyib Ərdoğan da bildirdi. Rusiya da, təbii ki, öz nüfuzunu bərpa etməyə çalışır. Ümumiyyətlə, danışıqların intensivləşməsi münaqişənin həllinin, necə deyərlər, ölü nöqtədən tərpənməsinə müsbət təsir edə bilər və bu da ermənilərin xeyrinə deyil. Lakin bu gün, artıq Azərbaycan diktə edən tərəfdir, Rusiya isə bunun hərbi yolunu istəmir və çəkinir. Tam şəkildə münaqişənin həllinə ümidim olmasa da, intensiv danışıqları müsbət dəyərləndirmək olar.

**GÜLYANƏ**


Mundo

Hikmat Hajiyev: "A Arménia é o único país monoétnico no mundo"

Entrevista

José Fialho Gouveia

6 PARTILHAS

ENVIAR POR EMAIL

IMPRIMIR

NAGORNO KARABAKH

AZERBAIJÃO

Hikmat Hajiyev

O porta-voz do Ministério dos Negócios Estrangeiros do Azerbaijão reafirma que os azeris jamais abdicarão da sua integridade territorial. Para Hikmat Hajiyev, a Arménia é culpada por uma limpeza étnica e terá que retirar-se dos territórios ocupados.

Quantos azeris morreram durante este ano na linha de contacto com o Nagorno-Karabakh (NK)?

Não tenho possibilidade de lhe dar um número exato. A Arménia, através do uso da força, ocupou terras do Azerbaijão e levou a cabo uma clara limpeza étnica contra um milhão de azeris. Lamentamos que, em resultado dessa ocupação e da presença ilegal de forças militares, todos os dias haja trocas de fogo e consequentemente perda de vidas humanas. A primeira coisa a fazer é a Arménia retirar as suas forças dos territórios que pertencem ao Azerbaijão.



# Hikmət Hacıyev: "Ermənistan yeganə monoetnik ölkədir"

## *XİN-in mətbuat xidmətinin rəhbəri Portuqaliyanın "Diario de noticias" portalına müsahibəsində Ermənistanın işğalçılıq siyasətindən danışıb*

***Portuqaliyanın "Diario de noticias" portalı Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyevin müsahibəsini dərc edib. AZƏRTAC xəbər verir ki, Hikmət Hacıyev müsahibəsində Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti barədə danışıb. XİN rəsmisi deyib ki, Ermənistan kənar güclərdən də istifadə edərək işğal etdiyi Azərbaycan ərazilərində etnik təmizləmə aparıb və təxminən bir milyondan artıq azərbaycanlı yurdundan didərgin salınıb. Təəssüf ki, atəşkəs rejiminə baxmayaraq bu gün də güllə yağışı səngimək bilmir və bu da insan itkisinə səbəb olur. Ermənistanın etməli olduğu ilk iş hərbi qüvvələrini Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarmaqdır.***

Hikmət Hacıyev qeyd edib ki, münaqişənin həlli üçün ilk növbədə işğal faktına son qoyulmalı və Azərbaycanın işğal altındakı torpaqları qeyd-şərtsiz azad edilməlidir. Ermənistan işğalçılıq siyasətindən əl çəkməlidir. BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamə Ermənistanın işğalçı qüvvələrinin qeyd-şərtsiz və tam şəkildə Azərbaycan torpaqlarından çıxarılmasını tələb edir.

Hikmət Hacıyev vurğulayıb ki, Azərbaycanın hazırda Dağlıq Qarabağda yaşayan erməni əhalisi ilə dialoq problemi yoxdur, lakin bunun reallaşması üçün Ermənistan hərbi qüvvələri işğal olunmuş ərazilərdən çıxmalıdır. Məcburi köçkün vəziyyətinə düşmüş azərbaycanlılar da öz tarixi yurd-yuvalarına qayıtmalıdırlar.

Mətbuat xidmətinin rəhbəri deyib ki, beynəlxalq hüquqa əsasən dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədləri güc yolu ilə dəyişdirilə bilməz. Ermənistan da anlamalıdır ki, bu feodal qaydalar XXI əsrdə yolverilməzdir. Ermənistan ona aid olmayan əraziləri işğal edib, həmin ərazilərdə etnik təmizləmə aparıb, mülki əmlakı dağıdıb və ondan sonra bunun nəticələrini öz müqəddəratını təyinetmə kimi təqdim edir. Bu, yolverilməzdir. Əgər Ermənistan qoşunları işğal olunmuş Azərbaycan ərazilərini tərk edərsə, Azərbaycan Dağlıq Qarabağa öz sərhədləri daxilində yüksək muxtariyyət statusu verə bilər.

Jurnalistin "Ermənistanda belə bir fikir formalaşıb ki, Azərbaycan tərəfinin nifrəti çox böyükdür. Siz bunu necə şərh edərdiniz?" sualına Hikmət Hacıyev belə cavab verib: "Məsləhət görərdim ki, Ermənistanda orta məktəb dərsliklərinə baxasınız. Siz orada ksenofobiya və nifrətin ən ifrat təzahürlərini görəcəksiniz. Ermənistan dünyada yeganə monoetnik dövlətdir, çünki burada etnik təmizləmələr mütəmadi şəkildə aparılıb. İki il əvvəl Ermənistan prezidenti Serj Sarkisyan demişdi ki, ermənilər və azərbaycanlılar etnik baxımdan uyğunsuzdurlar. Bu, artıq irqi ayrı-seçkilik xarakterli bəyanatdır".

Azərbaycanın Dağlıq Qarabağı hərb yolu ilə geri qaytarmaq ehtimalına dair suala cavabında XİN sözçüsü deyib ki, əlbəttə, münaqişənin sülh yolu ilə həlli imkanları tükənməyib. Bununla bərabər, bütün dünya dövlətləri kimi Azərbaycanın da özünü müdafiə etmək hüququ var.

# Dövlət uşaq siyasəti uğurla davam edir

*Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynovanın yap.org.az-a müsahibəsi*

***- Hicran xanım, bu günlərdə Bakı şəhərində Azərbaycan Uşaqlarının IV Ümumrespublika Forumu keçirildi. Ümumiyyətlə, bu forumların əhəmiyyəti haqqında fikirlərinizi bilmək istərdik. Azərbaycan Uşaqlarının Ümumrespublika Forumlarının keçirilməsi hansı zərurətdən yarandı?***

- Mən bu sualın cavabını Ümummilli liderimiz Heydər Əliyevin uşaqlar haqqında fikirləri ilə başlamaq istəyirəm. Ümummilli lider Heydər Əliyev deyib: "Fəxr edirəm ki, bizim Azərbaycanın gözəl, göyçək, istedadlı balaları, övladları var. Fəxr edirəm ki, Azərbaycanın gələcəyi bu qədər gözəl təməl əsasında qurulur. Siz bugünkü həyatınızla, təhsilinizlə, öz istedadınızı inkişaf etdirməklə Azərbaycanın gələcəyinin binasını qurursunuz, böyük binanı qurursunuz. Müstəqil Azərbaycanın, daim müstəqillik içində yaşayan Azərbaycanın böyük binasını qurursunuz". Bəli, bu gün onlar uşaqdır, gəncdir. Amma bir neçə ildən sonra bu nəsil dövlətimizi idarə edən, onun sağlamlığının, asayişinin, mədəniyyətinin keşiyində dayanan, ölkəmizi daha da inkişaf etdirən savadlı, müasirgörüşlü, rəqabətədayanıqlı mütəxəssislər, həkimlər, müəllimlər, mühəndislər, diplomatlar və digər sahələrin aparıcı şəxsləridir. Bu baxımdan gənc nəslin vətənpərvərlik, tariximizə, milli köklərə bağlılıq, böyüklərə yüksək ehtiram və mənəvi zənginlik duyğuları ilə tərbiyə olunması, onların şəxsiyyət və vətəndaş kimi formalaşması üçün ailə də, dövlət də məsuliyyət daşıyır.

Bizim üçün çox vacibdir ki, uşaqlarımızın ictimai fəallığı artsın və dövlət siyasətinin həyata keçirilməsində aktiv iştirak edə bilsinlər. Qeyd etmək lazımdır ki, bu sahədə görülən işlər öz müsbət nəticəsini verir. Artıq uşaqlarımız dövlət rəsmilərinə onları maraqlandıran suallarla müraciət edir, həmçinin, sərbəst şəkildə hökumətə öz hüquqları ilə bağlı istək və arzularını çatdırır, mühüm məsələlərə münasibətlərini bildirirlər. Azərbaycanın bütün regionlarında bizim dəstəyimizə çevrilən uşaqlardan ibarət güclü Liderlər Komandası formalaşıb. 8 il bundan əvvəl ilk Uşaq Forumu keçiriləndə, biz fikirləşirdik ki, bu tədbir nə qədər özünü təsdiq edə biləcək, cəmiyyətdə hansı rezonans doğuracaqdır. Amma uşaqlar çox cəsarətlə dünyada sülhə, əmin-amanlığa, ədalətə nail olmaq üçün öz gücünü, inamını nümayiş etdirərək, arzularını dilə gətirdi, dünyaya çağırış etdilər. Onlar sübut etdilər ki, əsl dostluq qarşısında bütün baryerlər gücsüzdür. İsti və mehriban insani münasibət nə siyasi, dini, mədəni mənsubiyyətdən, nə də sağlamlıq imkanlarından, sosial vəziyyətdən asılı deyil. Əsas məsələ həqiqi dostluqdur. Bu gün isə bizim artıq IV Forumu keçirməyimiz uşaqlarımızın cəmiyyətimizdə gedən proseslərə aktiv münasibətinin, məsələlərə kreativ, müasir yanaşmalarının göstəricisidir. Bu ilki Forumda ölkənin bütün bölgələrini təmsil edən üç yüz səksən uşaq iştirak etmişdir. Forumdan Foruma iştirakçıların sayı artır, digər ölkələrdən bizə qoşulurlar. Bu il Türkiyədən və Bolqarıstandan həm yüksək səviyyəli rəhbər işçilər, həm də gənc nümayəndə heyəti iştirak edir. Bütün bunlar Forumun səviyyəsinin daha da artdığını, beynəlxalq nüfuz qazandığını sübut edir.

Azərbaycan Uşaqlarının Ümumrespublika Forumlarının maraqlı tarixi var. Bildiyiniz kimi, Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2008-ci il tarixli, 103 saylı Sərəncamı ilə 2009-cu il "Uşaq ili" elan olunmuşdur. Elə həmin il - "Uşaq ili" çərçivəsində 17-18 dekabr tarixlərində Azərbaycanda ilk dəfə Azərbaycan Uşaqlarının I Ümumrespublika Forumu keçirilmişdir. Azərbaycan Uşaqlarının Ümumrespublika Forumları uşaq hüquqlarının qorunması və təbliği, uşaqlarla bağlı siyasi və hüquqi qərarların qəbulu, qanunvericilikdə, proqram və layihələrin hazırlanması və həyata keçirilməsində uşaqların fikirlərinin nəzərə alınması və onların maraqlarının qorunması; uşaqlara öz problemlərini səsləndirmək, təşəbbüslərlə çıxış etmək və tövsiyələr vermək imkanı yaratmaq; dövlət orqanlarının, ictimaiyyət və vətəndaş cəmiyyətinin, eləcə də, kütləvi informasiya vasitələrinin diqqətinin uşaqların hüquq və azadlıqlarının qorunması və təmin edilməsinin zəruriliyinə cəlb edilməsi məqsədilə keçirilir.



Forumlarda Azərbaycanın bütün şəhər və rayonlarından intellektual səviyyəsi yüksək olan, fəallıqları ilə seçilən, xüsusi bacarıq və qabiliyyətləri ilə fərqlənən, liderlik keyfiyyətlərinə məxsus 6-18 yaş arası uşaqlar iştirak edirlər. Xüsusi qayğıya ehtiyacı olan, sağlamlıq imkanları məhdud olan, qaçqın və məcburi köçkün ailələrindən olan, digər millətlərdən olan, valideyin himayəsindən məhrum olmuş uşaqların Forumlarda təmsilçiliyinə xüsusi önəm verilir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Heydər Əliyev Fondu və NUR Uşaq və Gənclərin İctimai Birliyi tərəfindən 17-18 dekabr 2009-cu il tarixində təşkil edilən I Forum Azərbaycanda "Uşaq İli"nin yekunlarına həsr olunmuşdur. 56 rayon və şəhərdən 250 uşağın iştirak etdiyi Forumda ölkəmizin Birinci xanımı Mehriban Əliyevanın təbrik məktubu oxunmuşdur. I Forum zamanı 2009-cu ilin "Uşaq İli" elan olunmasının vacibliyi və əhəmiyyəti vurğulanmış, uşaqların müdafiəsi və inkişafına dair qazanılan ən yaxşı təcrübələr, qarşıya çıxan maneələr, mövcud problemlər və zəruri tədbirlər nəzərdən keçirilmişdir. Tədbirin sonunda Forum iştirakçılarının cənab Prezident İlham Əliyevə müraciəti və yekun Bəyannamə qəbul olunmuşdur.

16 noyabr 2011-ci il tarixində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Heydər Əliyev Fondu və BMT Uşaq Fondunun ölkəmizdəki nümayəndəliyinin birgə təşkilatçılığı ilə II Forum keçirilmişdir. Respublikanın 85 rayon və şəhərindən 350 uşağın iştirak etdiyi Forumda Prezident İlham Əliyevin Forum iştirakçılarına təbrik məktubu oxunmuşdur. Forumda Prezident İlham Əliyev və ölkəmizin Birinci xanımı Mehriban Əliyeva "Uşaqların dostu" seçilmişdilər. Forum çərçivəsində uşaqlar Forumdan irəli gələn və uşaqların üzərinə düşən vəzifələrin həlli, eləcə də, Forumdan sonrakı dövrdə uşaqların bir- biriləri ilə əlaqələrinin saxlanılması məqsədilə Əlaqələndirmə Şurası yaradılmış, həmçinin Bəyannamə qəbul olunmuşdur. Eyni zamanda, texnologiyanın imkanlarından istifadə edilərək müxtəlif rayonlardan olan uşaqlarla canlı bağlantılar yaradılmış, onlar da prosesə cəlb edilmişdir. Bununla da, daha çox uşağın Forumun işinə cəlb olunması baş tutmuşdur.

17 noyabr 2014-cü il tarixində keçirilən III Forumda Azərbaycanın bütün şəhər və rayonlarından 350-dən çox uşaq iştirak etmişdir. Forum zamanı uşaqlarla hökumət nümayəndələrinin birbaşa dialoqu baş tutmuşdur. İştirakçılar hökumət üzvlərinə onları maraqlandıran sualları verərək cavab almaq imkanı əldə etmiş, öz təklif və fikirlərini irəli sürmüş, fikir mübadiləsi aparmışlar. III Forumun yekununda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən əziyyət çəkən uşaqların hüquqlarının müdafiəsi ilə bağlı dünya ictimaiyyəti və beynəlxalq təşkilatlara ünvanlanmış Bəyanat, Forumun Bəyannaməsi və ölkə başçısına Müraciət qəbul edilmişdir.

***- Ölkəmizdə keçirilən uşaq forumlarının əsas xüsusiyyəti və fərqləndirici cəhətləri nədən ibarətdir?***

- Keçirilən forumların əsas xüsusiyyəti və fərqləndirici cəhəti ondan ibarətdir ki, onu bütünlüklə uşaqlar idarə edir. Qeyd etmək lazımdır ki, Forumda müxtəlif mövzular ətrafında müzakirələr aparılır və yekunda uşaqların fikir və təkliflərini əhatə edən sənədlər qəbul olunur. Ümumiyyətlə, uşaqların öz hüquqlarına dair qərarların qəbul olunmasında iştirakını təmin etmək, onlara problemlərinin həlli ilə bağlı təşəbbüslər irəli sürmək və təkliflər vermək imkanı yaratmaq, ictimaiyyətin diqqətini uşaq hüquqlarının qorunmasına yönəltmək baxımından Uşaq Forumları olduqca böyük əhəmiyyətə malikdir. Uşaq Forumlarının keçirilməsi həm də ona görə də əhəmiyyətlidir ki, Forumlararası müddətdə keçirilən görüşlər, fikir mübadiləsi zamanı uşaqlar müxtəlif sahələrdə öz fikirlərini, təkliflərini bölüşə bilir və dövlət qurumlarının vacib məsələlərin həllində daşıdığı məsuliyyətin nə qədər ağır olduğunu hiss edirlər.

Ölkəmizdə uşaq məsələlərinə dövlət tərəfindən həmişə diqqət yetirilir. Onların sosial və hüquqi müdafiəsi ilə bağlı məsələlər Azərbaycan Respublikasının Konstitusiyası və bir sıra qanunverici və normativ-hüquqi aktlarla tənzimlənir. Biz müstəqilliyimizi çox mürəkkəb ictimai-siyasi və hərbi vəziyyətdə əldə etmişik. Və belə bir çətinliyə baxmayaraq, dövlətimiz üçün insan, o cümlədən, uşaq hüquqlarının müdafiəsi hər zaman prioritet olub. Müasir Azərbaycan dövlətinin qurucusu olan Ulu Öndər Heydər Əliyev uşaqlara daim qayğı və diqqət göstərirdi. Azərbaycanlı körpələrin sağlamlığı, onların yaxşı təhsil və təlim - tərbiyə alması, Vətən və xalq üçün gərəkli övladlar kimi böyüməsi Ümummilli liderin daim diqqətində olmuşdur. Müstəqilliyimizi qurduğumuz ən çətin illərdə belə, dövlətimiz üçün uşaq hüquqlarının müdafiəsi prioritet olub. Elə, ölkəmizin qoşulduğu ilk beynəlxalq sənədlərdən biri "Uşaq Hüquqları haqqında Konvensiya"dır. Bu milli qanunvericilikdə təkmilləşdirmə işinin aparılmasına, yeni mexanizmlərin yaradılmasına və uşaqlara qarşı zorakılıqla mübarizəyə ünvanlanan ümumi prinsiplərin formalaşdırılmasına təkan vermişdi. Həmçinin, Azərbaycan Hökuməti bu sənəddən beynəlxaq tribuna kimi istifadə edərək, ilk dəfə Ermənistanın ərazimizə təcavüz etməsi, üç yüz mindən artıq qaçqın və məcburi köçkün düşmüş uşaqlar haqqında məlumatları dünya ictimaiyyətinə çatdırmışdır. Qeyd edim ki, bu hərbi münaqişə zamanı 175 uşaq qətlə yetirilmiş, yaralanan uşaqların sayı isə yüzlərlədir. Dövlətimiz münaqişə müddətində 214 uşağın əsir və girovluqdan azad edilməsinə nail olmuşdur, 66 uşaq itkin dümüş, 29 uşaq isə hələ də girovluqdadır. Əfsuslar olsun ki, 1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, ermənilərin Azərbaycanda uşaqları qətlə yetirilməsi faktları qeydə alınmaqda davam etmiş və bu dövr ərzində 34 uşaq erməni terrorunun qurbanı olmuşdur. Onlardan 14-ü həlak olmuş, 20-si isə yaralanmışdır.

***- Hicran xanım, ötən Forumlardan sonra hansı nəticələr əldə edilib?***

- Foruma münasibət çox ciddidir. Və dövlət hər bir vətəndaşın istər uşaq, istərsə də böyük olsun fikrinə, arzusuna diqqətlə yanaşır. Qısaca olaraq əldə edilən bəzi uğurları sizin nəzərinizə çatdırmaq istərdim. İlk növbədə ölkədə uşaqlar üçün bütün imkan yaradılmışdır. Cənab Prezident İlham Əliyev dəfələrlə öz çıxışlarında qeyd edir ki, "elə etməliyik ki, bütün uşaqlar savadlı, bilikli olsunlar, gələcəkdə özləri üçün gözəl həyat qura bilsinlər, dövlətimiz üçün dəyərli vətəndaşlar olsunlar". Və bu arzu öz real həlini tapır. Son illər ərzində rayonlarda və bölgələrdə üç mindən çox orta məktəb, altı yüzdən çox xəstəxana, tibb məntəqələri, əllidən çox olimpiya və onlarla gənclər mərkəzi tikilib istifadəyə verilmişdir. Biz iqtisadi əlaqələri dağılmış ölkədən güclü, davamlı inkişaf edən ölkəyə çevrilmişik. Bu yüksəliş təkcə iqtisadi, qaz və energetika sahəsində deyil, elm, idman, mədəniyyət, sosial və digər sahələrdə baş vermişdir. İki telekommunikasiya peykimiz orbitə çıxarılıb. Artıq Azərbaycan Avrasiya qitəsində nəqliyyat mərkəzlərinin birinə çevrilməkdədir. Əlbəttə, bir məsələni unutmaq olmaz ki, bütün bu uğurlar təkcə Ermənistanla davam edən müharibə və onun törətdiyi ağır fəsadların deyil, həm də bizə qarşı aparılan riyakar və ədalətsiz siyasətin fonunda həyata keçirilir.

"Gənclərin həm ailələrdə, həm məktəblərdə milli ruhda tərbiyə alması xüsusi əhəmiyyət daşıyır. Xüsusilə indiki şəraitdə dünyada müxtəlif proseslər gedir, qloballaşma adı ilə faktiki olaraq eyniləşmə siyasəti aparılır, kütləvi informasiya vasitələri ilə müxtəlif təxribatlar ortaya atılır". Cənab Prezidentin bu fikirləri uşaq hüquqlarının müdafiəsi sahəsində prioritetləri müəyyən edir. Müvafiq sahələrdə görülmüş işlər sırasında ilk olaraq qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi çox vacibdir. Həmin qanunların qəbul edilməsi yeni düşüncə tərzinin formalaşmasına və müəyyən stereotiplərin aradan qaldırılmasına təkan vermişdir. Nikah

# Dövlət uşaq siyasəti uğurla davam edir

## Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynovanın yap.org.az-a müsahibəsi

yaşı 17-dən 18-ə qaldırılmış, erkən nikahların qarşısının alınması məqsədilə qanunvericilikdə valideyn məsuliyyəti müəyyənləşdirilmişdir. Valideyn məsuliyyətinin artırılması üçün Azərbaycan Respublikasının İnzibati Xətalar və Cinayət Məcəllələrinə, o cümlədən, "Uşaq hüquqları" haqqında Qanuna dəyişikliklərin edilməsi haqqında Qanunlar qəbul edilmişdir. Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və alternativ cəza tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə 2017-ci ildə ölkə başçısının Sərəncamı olmuşdur. Bu sənəd eyni zamanda, yuvenal ədliyyə sisteminin formalaşmasına da imkan yarada bilər. Bu, bizə nə verəcək, ilk növbədə qanuna zidd hərəkət etmiş uşağa cinayətkar damğasının vurulmasının qarşısını alacaq. Biz onları özümüzdən uzaqlaşdırsaq, onlar daha da aqressivləşər, qatı cinayətkara çevrilə bilərlər. Bu sahədə çoxlu qanun və dəyişikliklərin qəbul olunmasını nəzərə alaraq, onların implementasiyası ilə bağlı hakimlər, vəkillər üçün xüsusi təlimlər keçirilir. Və artıq müsbət nəticələrə nail olmuşuq. Uşaq hüquqları haqqında Konvensiya üzrə 2015-ci ildə 3506, 2016-cı ildə isə 4654 məhkəmə qərarı çıxarılıb. Əlbəttə ki, bu sahədə gələcək hədəflərin müəyyən edilməsi də vacib məsələlərdəndir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası və 2016-2030-cu illər üçün Dayanıqlı İnkişaf Məqsədlərini əsas götürərək, uşaqların bütün sahələrdə imkanlarının daha da genişləndirilməsi, hüquqlarının müdafiəsi üçün müvafiq sənədlər hazırlanır. Uşaq Strategiyası rəy üçün Nazirlər Kabinetinə təqdim olunmuşdur. Uşaq Məcəlləsi ilə bağlı ilkin hazırlıq prosesi aparılır.

Hazırda ölkədə iki milyon altı yüz minə yaxın uşaq var. Dövlət tərəfindən mütəmadi olaraq qaçqın və məcburi köçkün uşaqlar üçün xidmətlərin təminatına, böyüməkdə olan nəslin sağlamlığına, təhsilinin inkişafına, hüquqlarının müdafiəsinə, uşaq iştirakçılığına yönəlmiş tədbirlər keçirilir. Respublikanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın uşaq məsələlərinə diqqəti bu sahəyə qayğının daha da artırılmasına səbəb olmuşdur. Xüsusilə də "Uşaqlar Azərbaycanın sabahıdır, gəlin onların problemlərinə biganə qalmayaq" devizini irəli sürən Mehriban xanım uşaqların hərtərəfli inkişafı, keyfiyyətli təhsil, yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin olunması istiqamətində önəmli layihələr həyata keçirir. "Yeniləşən Azərbaycana yeni məktəb" çərçivəsində yüzlərlə təhsil ocaqları tikilib istifadəyə verilmişdir. Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" və "Məktəbəqədər uşaq tərbiyə müəssisələrinin yenidən qurulması" layihəsi çərçivəsində 100-ədək körpələr evi, bağça və internat məktəbi əsaslı təmir olunmuşdur. Kimsəsiz, yetim, fiziki sağlamlığında problemi olan uşaqların sosial-psixoloji reabilitasiyası üçün resurs mərkəzinin yaradılması, bu uşaqların məşğulluğunun təmin edilməsi, eləcə də müxtəlif peşələrin öyrədilməsi, "Təhsilə dəstək" və "İnklüziv təhsil" proqramlarının həyata keçirilməsi Fondun xidmətləri sırasında xüsusi vurğulanmalıdır. Lakin Mehriban xanımın sözləri ilə desək "Ən müasir internat məktəbi və ən yaxşı uşaq evi ailəni əvəz edə bilməz", buna görə də, ailələrimiz çox möhkəm, milli, mənəvi dayaqlar əsasında qurulmalı, ailənin, övladların və cəmiyyətin qarşısında hər kəs öz məsuliyyətini dərk etməlidir.

Qeyd edim ki, uşaq məsələləri ilə əlaqədar dövlət qurumları arasında koordinasiya və nəzarət sistemi təkmilləşdirilmişdir. 2012-ci ildən Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"na əsasən, dövlət müəssisələrində uşaqların qidalanma, nəzarət, təhlükəsizlik, zorakılığa məruz qalma və digər məsələlərlə bağlı monitorinq aparılmışdır. Hazırlanmış tövsiyələr əsasında təlim-tərbiyə müəssisələrində şərait standartlara uyğunlaşdırılmış, mütəxəssislər üçün yeni təlimlər keçirilmişdir. Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı yaradılmış, artıq məlumatlar daxil edilir. Bunun nəticəsində biz uşaq problemlərinin dəqiq statistikasını biləcəyik ki, bu da həmin sahədə daha effektiv preventiv tədbirlərin həyata keçirilməsinə səbəb olacaq. Hazırda bütün yerli icra hakimiyyətlərində müvafiq yerli icra orqanlarının nümayəndələrindən ibarət Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları yaradılmışdır. Monitorinq qrupları eyni zamanda, zərərçəkmiş uşaqlarla profilaktik işi təşkil edir, onlara lazımi psixoloji və hüquqi yardımlar göstərir.

***- Bəs ölkəmizdə uşaqların sağlam həyat tərzinin təmin olunması üçün nə kimi addımlar atılır?***

- Vacib məsələlərdən biri də uşaqların sağlam həyat tərzi keçirmələridir. Azərbaycanda idmana dövlət səviyyəsində böyük diqqət və qayğı göstərilir. Gənc nəsil, uşaqlar, yeniyetmələr idman bölmələrinə gedirlər və idmanla məşğul olurlar. Uşaqların asudə vaxtlarının səmərəli keçirilməsi sahəsində də mühüm tədbirlər görülmüş, həm bilik yarışları, olimpiadalar keçirilmiş, sağlamlıq imkanları məhdud, valideyin himayəsindən məhrum, cəbhəyanı bölgələrimizdə yaşayan uşaqlar üçün düşərgələr təşkil olunur. Ölkə başçısı İlham Əliyevin tapşırığı ilə həyata keçirilən "Ölkəmizi tanıyaq" layihəsi nəticəsində şagirdlər ölkəmizin müxtəlif şəhər və rayonlarının zəngin və çoxəsrlik tarixi, mədəniyyəti haqqında dolğun məlumat əldə edir, yeni dostlar qazanırlar. Komitəmizin regionlarda fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək Mərkəzləri icmada risk qrupuna aid olan ailə, qadın və uşaqlara dəstək göstərir. Təkcə, 2016-cı ildə Mərkəzlərin nəzdində olan xidmətlərdən ümumilikdə 4351 uşaq istifadə etmişdir. Eyni zamanda, növbəti il BMT-nin müvafiq Komitəsi qarşısında Uşaq Hüquqları üzrə ölkə hesabatı veriləcək, bununla bağlı ciddi hazırlıq işləri aparılır. Biz bir sıra ölkələrin aidiyyatı dövlət orqanları, eləcə də beynəlxalq təşkilatlarla tərəfdaşıq. Qeyd etmək istərdim ki, uşaq hüquqlarının müdafiəsi, məişət zorakılığı, erkən nikah, təhsildən yayınma hallarının qarşısının alınması və digər layihələr həm milli qanunvericiliyin gücləndirilməsində, həm də maarifləndirici işlərin reallaşmasında xüsusi əhəmiyyətə malikdir.

***- Azərbaycan hökuməti uşaq hüquqlarının müdafiəsi ilə bağlı BMT-nin Uşaq Fondu ilə hansı səviyyədə əməkdaşlıq edir?***

- Bizim əsas tərəfdaşlarımızdan biri BMT-nin Uşaq Fondudur. 25 ilə yaxındır əməkdaşlıq çərçivəsində biz uşaq hüquqlarının müdafiəsi ilə bağlı bir sıra aktual layihələr keçirmişik, ölkə üzrə proqramları qəbul edib, yerinə yetirmişik. Azərbaycanda BMT Uşaq Fondunun fəaliyyətə başlamasını Ümummilli lider Heydər Əliyev yaxından dəstəkləyirdi. O, təşkilatın Azərbaycandakı fəaliyyətini yüksək qiymətləndirərək bu əməkdaşlığa böyük ehtiyac olduğunu vurğulayaraq demişdir ki: "Biz istəyirik ki, BMT-nin Uşaq Fondu ilə Azərbaycanın əməkdaşlığı daha da geniş olsun. Çünki buna böyük ehtiyac vardır." Bu gün isə ölkə başçısı İlham Əliyev tərəfindən bu əməkdaşlığın daha da gücləndirilməsinə xüsusi diqqət yetirilir. Uşaq Fondunun təşəbbüsləri Hökumət tərəfindən daim dəstəklənir. Bu isə, həm qanunvericilik bazasının təkmilləşdirilməsində, həm də maarifləndirmə işlərinin aparılmasında öz töfhəsini verir. Avropa Şurası Parlament Assambleyasının müvafiq Komitəsinin valideyn məsuliyyəti, uşaqların sosial müdafiəsi və təhsilləri ilə bağlı tövsiyələri tərcümə olunaraq, müvafiq dövlət qurumlarına təqdim edilib. Artıq iki ildir ki, ölkəmizdə 22 noyabr uşaqların cinsi istismardan və zorakılıqdan müdafiəsi üzrə Avropa günü qeyd olunur və "hər beş uşaqdan biri" kampaniyaları keçirilir. 2016-2021-ci illəri əhatə edən Uşaq Strategiyasının hazırlanmasında əlli azərbaycanlı uşağın fikri öyrənilib və çox sevindirici haldır ki, onların təklifi həmin sənəddə öz əksini tapacaq. Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planı "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının ratifikasiya edilməsi üçün tədbir görülməsi nəzərdə tutulub.

***- Hicran xanım, Azərbaycan Uşaqlarının IV Ümumrespublika Forumu nə kimi səciyyəvi xüsusiyyətləri ilə əlamətdardır?***

- Ötən Forumlarda olduğu kimi, IV Ümumrespublika Uşaq Forumu da gərgin hazırlıq prosesi keçdi. Biz müşahidə etdik ki, bu il daha çox uşağın həvəs göstərərək, Forumda iştirak etmək istəyi yarandı. Bu hadisə həm də əvvəlki Forumlardakı uşaqların aktivliyinin və bu gün cəmiyyətdə tutduğu mövqeyin təsirindən irəli gəlir. Forumda iştirak etmək istəyən uşaqların seçilmələri məqsədilə bu ilin əvvəlindən regional görüşlər təşkil olunmağa başlanmış və seçim turları keçirilmişdir. Seçilmiş uşaqların Forumda aktivliyini təmin etmək, müzakirəyə çıxarılacaq mövzulara dair onların biliklərini və problemə yanaşma tərzini təkmilləşdirmək məqsədilə il ərzində uşaqların iştirakı ilə uşaq hüquqlarının ayrı-ayrı sahələri üzrə tədbir, təlim və görüşlər təşkil olunmuşdur. Foruma hazırlıq prosesində uşaqlar üçün ən yadda qalan hadisələrdən biri isə rəsmilərlə birbaşa görüşlərin təşkili olmuşdur. İlk tədbir uşaqların təşəbbüsü ilə 1 iyun-Uşaqların Beynəlxalq Müdafiəsi Günündə Milli Məclisdə vitse-spiker Bahar Muradovanın iştirakı ilə baş tutmuşdur. Təhsil naziri Mikayıl Cabbarovla da görüş təşkil olunmuşdur. Görüşdə uşaqların Azərbaycanda təhsilin inkişafı, təhsil sahəsində aparılan islahatlar, əldə olunan nailiyyətlər, gələcək ixtisas seçimləri və digər aidiyyəti mövzularla bağlı uşaqların suallarını cavablandırmışdır. Eyni zamanda, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə ilə uşaqların görüşü olmuşdur. İKT sektorundakı ən son yeniliklər, yüksək texnologiyalar və ölkəmizin kosmik sənayesi barədə söz açan nazir uşaqları "Azərkosmos"un Peyk İdarəetmə Mərkəzinə dəvət etmişdir. Nazir uşaqların start-uplar, internet resursları, internet təhlükəsizliyi, "Elektron hökumət", informasiya texnologiyaları və s. barədə suallarını cavablandırmışdır. Növbəti görüş isə Gənclər və İdman naziri Azad Rəhimovla təşkil olunmuşdur. Nazir gənclər siyasəti sahəsində həyata keçirilən layihələr haqqında, son illərdə ölkəmizin idmanda əldə etdiyi nailiyyətlərindən və sağlam həyat tərzi barədə geniş məlumat verib və uşaqları maraqlandıran sualları cavablandırıb.

Sonda bir daha Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində bütün görüşlərin nəticələri müzakirə edilərək, ümumi təkliflər hazırlanıb. Görüşlərdən başqa Foruma hazırlıq məqsədilə Komitə BMT-nin Uşaq Fondu ilə birgə iyul ayında Şamaxı rayonunda Yay məktəbi təşkil etmişdir. Yay məktəbində Azərbaycanın müxtəlif bölgələrindən Foruma nümayəndə olaraq seçilmiş uşaqlar iştirak etmişdir. Yay məktəbi zamanı uşaqlara uşaq hüquqları, internet təhlükəsizliyi, uşaqların şəxsiyyət kimi yetişməsində ailə və cəmiyyətin rolu, asudə vaxtın səmərəli təşkili, ətraf mühitin qorunması və sağlam həyat tərzi, uşaqlarda liderlik keyfiyyətlərinin artırılması, Qarabağ həqiqətlərinin dünyaya çatdırılması mövzularında təlimlər keçirilmiş, qrup işləri, həmçinin uşaqlarla aktiv müzakirələr aparılmışdır.

IV Forum çox səmərəli və gərgin şəraitdə keçdi. Qruplarda bir-birindən aktual məsələlərdən bəhs edən təqdimatlar oldu, ətraflı müzakirələr aparıldı. Qeyd edim ki, uşaqlarla bərabər, dövlət təşkilatlarının məsul şəxsləri, ictimai xadimlər, tanınmış ziyalılar da həvəslə iştirak edirdilər. Uşaqlarımızın bu tədbirdən gözləntilərini və gələcəyə baxışlarını, arzularını bilmək və eşitmək bizim üçün vacibdir, əhəmiyyətlidir. Düşünürəm ki, bu Forumda da irəli sürülən bütün təkliflər reallaşacaq, öz həllini tapacaqdır.

Artıq altmış bir ildir ki, dünyada 20 noyabr Ümumdünya Uşaqlar Günü bütün dünya ölkələrində bayram kimi qeyd olunur. Uşaqların sağlam və xoşbəxt böyüməsi hər zaman olduğu kimi, bu gün də aktualdır. Lakin müasir dövrdə, xüsusilə də hərbi münaqişələr, kataklizmlər, terrorizm və zorakı ekstremizmin fonunda bu məsələ özünü daha qabarıq şəkildə göstərir. Uşaqlar aldıqları sevgini, şəfqəti, gözəl tərbiyəni, eləcə də zorakılığı və aqressiyanı böyüyəndə daha kəskin formada cəmiyyətə qaytarırlar. Nəticədə qazanan da, itirən də cəmiyyət olur. Buna görə də onların normal inkişafını təmin etmək və cəmiyyətə yararlı vətəndaş böyütmək hamımızın borcudur.

Sonda isə sözüm yenə uşaqlaradır: Cəsarətli olun! Hər şey sizin gücünüzdən, biliyinizdən asılıdır. Əsas odur ki, inadla irəli gedəsiniz. Bir olmağınız, mehribançılığınız, dostluğunuz isə ən xoş arzu və niyyətləri həyata keçirməkdə sizə mütləq kömək edəcəkdir.

# Ölkəmizin turizm imkanları genişlənir

*Cari ilin 10 ayı ərzində ölkəmizə gələn xarici vətəndaşların sayı 2 276 604 nəfər olub*

**Azərbaycanın yüksək iqtisadi-sosial uğurlarından və əldə edilən nailiyyətlərindən danışarkən, son illərdə müasir tələblərə cavab verən turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsinin təmin edilməsi istiqamətində əldə olunan irəliləyişlərini də qeyd etməliyik.**



Turistin inkişaf etdiyi ölkəyə çevrilən Azərbaycanda fəaliyyət göstərən turizm şirkətləri və hotellər dünya standartlarına uyğun qurulub və yeni turizm zonaları yaradılıb. Təbii ki, bu sahədəki nailiyyətləri diqqətə çəkərkən ölkəmizdə dünya standartlarına cavab verən beşulduzlu və dördulduzlu mehmanxanaların olmasını da qeyd etməliyik. Azərbaycanda yol, nəqliyyat və digər infrastrukturun müasirləşdirilməsi də turizmin inkişafına yol açıb. Xarici ölkələrdən Azərbaycana üz tutan turistlərin sayının ilbəil artması da, əlbəttə, bu və digər amillərə əsaslanır. Statistik rəqəmlərə nəzər saldıqda, görərik ki, cari ilin 10 ayı ərzində ölkəmizə gələn xarici vətəndaşların sayı 2 276 604 nəfər olmuşdur. Onlardan 727 577 Rusiya Federasiyası, 439 305 Gürcüstan, 320 904 İran, 249 210 Türkiyə, 81 742 Birləşmiş Ərəb Əmirlikləri, 54 242 İraq, 49 809 Ukrayna, 31 821 Səudiyyə Ərəbistanı, 321 994 nəfəri isə digər ölkələrin vətəndaşları olmuşdur. Qeyd edək ki, xarici vətəndaşlar daha çox iyul ayında ölkəmizə gəlmişdir ki, bu da 313 515 nəfər olmuşdur.

Ölkəmizə gələn xarici vətəndaşların ümumi sayında Rusiya, Gürcüstan, İran və Türkiyə vətəndaşlarının xüsusi çəkisi daha çox olmuş və müvafiq olaraq 31,9 faiz, 19,2 faiz, 14 faiz və 10,9 faiz təşkil etmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə, bu il əsas artım tempi göstərən ölkələr İran, BƏƏ və Rusiya olmuşdur. Belə ki, bu il İrandan 115 782, BƏƏ-dən 42 811, Rusiyadan 96 040 nəfər turist gəlmişdir.

Qeyd edək ki, ölkəmizə bu qədər turist axınına, yuxarıda qeyd etdiyimiz amillərlə yanaşı, ölkəmizdə keçirilən müxtəlif səpkili tədbirlər də səbəb olub. Son illərdə beynəlxalq səviyyəli idman yarışlarını, xüsusi olaraq qeyd etməliyik. Azərbaycanda hökm sürən sabitlik, ölkənin yeraltı sərvətlərlə zənginliyi, iqtisadiyyatın sürətli inkişafı və idmana göstərilən diqqət və qayğı ilk Avropa Oyunlarının, məhz Azərbaycanda keçirilməsinə imkan verdi. Dünyanın 93 ölkəsinin televiziya vasitəsilə yayımlanan Avropa Oyunlarını 1 milyarddan artıq, "Formula-1"i isə 500 milyon auditoriyası olan tamaşaçının izləməsi Azərbaycanın turizm potensialının tanınması baxımından əhəmiyyətli oldu. Daha sonra ölkəmizin IV İslam Həmrəyliyi Oyunlarına uğurla ev sahibliyi etməsi Azərbaycanda turizmi gücləndirmək, qədim mədəniyyəti təbliğ etmək baxımından, mühüm əhəmiyyətə malikdir. Ölkə malik olduğu infrastruktur, müasir arenalar, yüksək səviyyəli xidmət sahələri və nəqliyyat şəbəkəsi sayəsində, bu beynəlxalq tədbirlərə ev sahibliyi etdi. Bu oyunlardan sonra da ölkəmizə turist axını bir respublika qədər də artdı. Bütün dünya bu gün Azərbaycanın, nəinki islam aləmində, bütün dünyada inkişafda olan müasir, mütərəqqi, sabit və əmin-amanlıq içində yaşayan güclü dövlət olduğunu gördü.

Son illərdə Azərbaycanda keçirilən Bakı Şopinq Festivalı da bu sıradadır. Artıq ikinci dəfə keçirilən Bakı Şopinq Festivalı təkcə ticarət deyil, ölkəmizin adət-ənənələrini, tarixi və mədəni irsini tanıtmaq baxımından da, öz müsbət tərəfləri ilə seçilir. Qeyd edək ki, Dünya Turizm Təşkilatının hesablamalarına görə, ticarət festivalları turist axınını 30 faizədək artırır. Ticarət turistlərin xərcləri sırasında əsas kateqoriyaya çevrilir, nəticə etibarilə birbaşa və iqtisadiyyatın digər sektorları ilə əlaqədə olaraq iqtisadiyyatın vacib gəlir mənbəyinə çevrilir. Festival təkcə yerli medianın deyil, beynəlxalq aləmin, eləcə də, xarici KİV-lərin diqqət mərkəzində olub. Bu yaxınlarda Küveytin məşhur "ən-Nəhar" qəzeti Azərbaycanın turizm potensialına dair geniş məqalə ilə çıxış edib. Qəzet böyük turizm imkanlarına malik Azərbaycanın xarici ölkələrdən, xüsusilə, ərəb dövlətlərindən turistləri cəlb etmək üçün bir sıra tədbirlər və proqramlar həyata keçirdiyini qeyd edir.

Bəli, bu gün İkinci Bakı Şopinq Festivalı böyük əks-səda doğurub. Dünən festival öz işinə yekun vurdu. Birinci Şopinq Festivalına nisbətən bu il festivala gələnlərin sayında artım müşahidə olunub. Ötənilki Şopinq Festivalına nisbətən bu il artım 1,5 və ya 2 dəfə olub. Ümumi alıcıların, iştirakçıların və keçirilən aksiyaların sayı keçən festivala nisbətən təxminən 2 dəfəyə qədər artıb.

***ZÜMRÜD***

## Bakı-Tbilisi-Qars dəmir yolunun Naxçıvan polad magistrallarına birləşdirilməsi 2020-ci ildə başlanıla bilər



Bakı-Tbilisi-Qars dəmir yolunun Naxçıvan polad magistrallarına birləşdirilməsi layihəsinin müzakirəsi gündəmdədir və Azərbaycan buna ciddi maraq göstərir. Bu barədə İstanbulda keçirilən İslam Əməkdaşlıq Təşkilatının İqtisadi və Ticarət Əməkdaşlığı üzrə Daimi Komitəsinin (COMCEC) "Transmilli nəqliyyat dəhlizlərinin inkişaf perspektivləri" mövzusunda 33-cü iclası çərçivəsində gerçəkləşən panel iştirakçılarına məlumat verilib. Paneldə AZƏRTAC-ın xüsusi müxbirinin sualını cavablandıran "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov qeyd edib ki, Türkiyə tərəfi bu layihəni 2020-ci ildə başlamağı planlaşdırır. Bu yolun bir hissəsi dağlıq ərazidən keçir. Texniki əsaslandırmaya dair ilkin cizgilər mövcuddur. Türkiyənin nəqliyyat, gəmiçilik və kommunikasiya naziri Əhməd Arslanla bu layihə barədə müzakirələrimiz olub.

## Tofiq Quliyevin xatirəsi Azərbaycan Milli Konservatoriyasında yad edilib



Azərbaycan Milli Konservatoriyasında (AMK) görkəmli bəstəkar, Xalq Artisti Tofiq Quliyevin 100 illiyinə həsr olunmuş konsert proqramı təşkil edilib. Konservatoriyadan AZƏRTAC-a bildirilib ki, konsert AMK-nın tələbə gənclər təşkilatı və "Mədəniyyət" kanalının birgə təşkilatçılığı ilə reallaşıb. Konsertdən əvvəl AMK-nın rektoru, Xalq Artisti Siyavuş Kərimi çıxış edərək görkəmli bəstəkarın həyat və yaradıcılığından söz açıb. Vurğulanıb ki, T.Quliyevin mahnıları ölməz və əbədiyaşardır. Tədbirin hazırlıq prosesindən danışan S.Kərimi konsertin ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürünü bildirib. Sonra sənətkarın həyat və yaradıcılığını əks etdirən videoçarx nümayiş olunub. Konsertdə AMK-nın tələbələri konsertmeysterlərin müşayiəti ilə T.Quliyevin mahnılarını səsləndiriblər. Sonda bəstəkarın oğlu, rejissor, Xalq Artisti Eldar Quliyev atasının xatirəsinə göstərilən hörmət və ehtirama görə tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.

## Rövşən Rzayev: Brüssel Forumunda separatizmin dünya üçün ciddi təhlükə olmasına dair mühüm bəyanatlar verildi



Brüsseldə keçirilən "Separatizm beynəlxalq sülhə və təhlükəsizliyə təhdiddir" mövzusunda Beynəlxalq Forum bütün dünya ölkələri üçün çox əhəmiyyətli tədbirdir. Burada çox aktual bir mövzu barədə müzakirələr aparıldı. Bu fikri AZƏRTAC-a açıqlamasında Forumda iştirak edən Milli Məclisin deputatı, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin İdarə heyətinin üzvü Rövşən Rzayev deyib. Rövşən Rzayev qeyd edib ki, Forumda terrorizmin və separatizmin dünya üçün təhlükəyə çevrilməsi barədə ciddi bəyanatlar verildi. Dünya dövlətləri və beynəlxalq təşkilatlar terrorizmə, separatizmə qarşı səmərəli mübarizə aparmalı və bununla bağlı ciddi tədbirlər görməlidirlər. Milli Məclisin deputatı Forumda ölkəmizin mövqeyinin diqqətə çatdırıldığını, Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun çıxışının böyük maraqla qarşılandığını bildirib. O deyib ki, Forumda iştirak edən tanınmış ekspertlər separatizmin sülhə və təhlükəsizliyə təhdid olması ilə bağlı çox önəmli fikirlər bildirdilər. Forum çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panelin keçirilməsi və ekspertlərin bu barədə mövqelərini səsləndirmələri də çox önəmli məqamlardan biri idi.

## Son 65 ildə ilk dəfə Türkiyə prezidenti Yunanıstana səfər edəcək




Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Yunanıstana rəsmi səfər etmək niyyətindədir. AZƏRTAC Anadolu informasiya agentliyinə istinadla xəbər verir ki, baş nazirin müavini Hakan Çavuşoğlu bunun son 65 ildə Türkiyə liderinin bu ölkəyə ilk səfəri olacağını bildirib. Rəcəb Tayyib Ərdoğan respublikanın Baş naziri postunda olarkən 2010-cu ildə Afinanı ziyarət etmişdi.

Türkiyə və Yunanıstan arasında indiyə qədər müəyyən gərginlik müşahidə edilir. Bu sıraya Egey dənizi akvatoriyasında və bu rayonun hava məkanında mübahisələr, Kipr məsələsi, həmçinin Ankaranın 2016-cı ildə Türkiyədə baş verən dövlət çevrilişi cəhdinin təşkilində ittiham etdiyi Fətullah Gülən tərəfdarlarına Afinada sığınacaq verilməsi aiddir.

## Türkiyə Cocuq Mərcanlıda layihə həyata keçirmək istəyir



Türkiyə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin inkişafına töhfə vermək üçün burada layihə həyata keçirmək istəyir. AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral bildirib. Səfir qeyd edib ki, bu layihə Cocuq Mərcanlıda kənd təsərrüfatı və heyvandarlığın inkişafını nəzərdə tutan təsərrüfatın yaradılmasını və burada aqrar məhsulların istehsalını nəzərdə tutur. Bu təsərrüfatda istehsal olunacaq məhsullar daxili bazara yönəldilməklə yanaşı, gələcəkdə xarici ölkələrə də ixrac edilə bilər.

## Ötən il 237,7 min xəstə üzərində cərrahiyyə əməliyyatı aparılıb

Keçən il ərzində 250,6 min cərrahi əməliyyat yerinə yetirilib. Həmin əməliyyatlardan 80,6 mini ambulator-poliklinik müəssisələrdə icra olunub. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, əhalinin hər min nəfərinə xəstəxanalarda 26,0, ambulator-poliklinik müəssisələrdə 8,4 əməliyyat aparılıb.

Üzərində cərrahiyyə əməliyyatı aparılan xəstələrin sayı 237,7 min, ambulator-poliklinik müəssisələrdə 76,9 min nəfər olub. Əhalinin hər min nəfərinə il ərzində orta hesabla 24,7 cərrahiyyə əməliyyatı icra olunub.

# Azərbaycan Akkreditasiya Mərkəzi Avropa Akkreditasiya Təşkilatının assosiativ üzvlüyünə qəbul edilib

***Azərbaycanda istehsal olunan məhsulların xarici bazarlara çıxışının təmin olunması və yerli məhsulların ixrac potensialının artırılması üçün milli akkreditasiya sisteminin beynəlxalq aləmdə tanınmasının təmin olunması ilə bağlı ölkə başçısının tapşırıqlarına uyğun olaraq, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti noyabrın 22-də Almaniyanın Berlin şəhərində Avropa Akkreditasiya Təşkilatının Baş Assambleyasının iclasında iştirak edib.***



İclasda çıxış edən komitə sədri Ramiz Həsənov ölkəmizdə sahibkarlığın inkişaf etdirilməsi, qeyri-neft ixrac potensialının artırılması və ticarətin liberallaşdırılması istiqamətində Prezident İlham Əliyev tərəfindən aparılan islahatlar barədə məlumat verib. O bildirib ki, ticarətdə texniki maneələrin aradan qaldırılması məqsədilə keyfiyyət infrastrukturu sahələrinin beynəlxalq tələblərə uyğunlaşdırılması prosesi uğurla davam etdirilir. Sədr qeyd edib ki, uyğunluğun qiymətləndirilməsi və akkreditasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi və bu sahədə xarici təcrübənin tətbiqi üçün Prezidentin 10 fevral 2017-ci il tarixli Fərmanına əsasən, komitə tərəfindən Azərbaycan Akkreditasiya Mərkəzi publik hüquqi şəxs təsis edilib və ona milli orqan statusu verilib.

Baş Assambleyasının iclasında Azərbaycan Akkreditasiya Mərkəzinin Avropa Akkreditasiya Təşkilatına assosiativ üzvlüyü ilə bağlı müraciətinə baxılıb. Azərbaycan Akkreditasiya Mərkəzi yekdilliklə beynəlxalq təşkilatın assosiativ üzvlüyünə qəbul edilib.

Bu üzvlük Avropa İttifaqı ölkələri ilə ticarət əlaqələrində texniki maneələrin aradan qaldırılması və milli uyğunluğun qiymətləndirilməsi sisteminin Avropa keyfiyyət infrastrukturuna qoşulması istiqamətində əhəmiyyətli addımdır. Burada əsas məqsəd Azərbaycanda akkreditasiya olunmuş qurumlar tərəfindən verilən sınaq və kalibrləmə sənədləri və uyğunluq sertifikatlarının Avropa ölkələrində tanınmasıdır. Bu isə, öz növbəsində, yerli məhsulların ixracı zamanı sahibkarların sənədləşmə üçün sərf olunan əlavə vaxt və maliyyə itkisinin qarşısının alınmasına gətirib çıxaracaq.

Hazırda Azərbaycan Akkreditasiya Mərkəzinin Avropa Akkreditasiya Təşkilatının ikitərəfli tanınma Sazişinə qoşulması ilə bağlı işlər davam etdirilir. Bu məqsədlə "Azərbaycanda milli akkreditasiya sisteminin gücləndirilməsi" adlı Avropa İttifaqının Tvinniq layihəsi icra olunmaqdadır.

Assambleya çərçivəsində Azərbaycan Akkreditasiya Mərkəzi ilə Latviya Milli Akkreditasiya Bürosu və Macarıstan Milli Akkreditasiya Təşkilatı arasında Anlaşma Memorandumları imzalanıb.

**NƏZAKƏT**

# Separatizmə laqeyd münasibət Avropanın öz başında çatlayır

***"Forumun keçirilməsi onu göstərdi ki, Azərbaycan da separatizmdən və terrorizmdən narahatdır. Ölkə rəhbəri İlham Əliyev də bunu bütün beynəlxalq tədbirlərdə səsləndirib". Bunu qəzetimizə açıqlamasında Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzinin sədri, politoloq Rufiz Qonaqov Brüsseldə keçirilən Qarabağ Beynəlxalq Forumunun olduqca əhəmiyyətli olduğunu şərh edərkən bildirib.***

"Prezidentin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun da qatıldığı forumda Avropanın aparıcı şəxsləri iştirak edirdi"-deyə qeyd edən politoloqa görə, forum çərçivəsində etnik separatizm və beynəlxalq terrorla mübarizə üsulları ilə bərabər ikili standart kimi problemlərə də toxunuldu. SİTAT: "Tədbirdə Əli Həsənov separatizmdən əziyyət çəkən bir çox əraziləri göstərdi. Xəritəni göstərərək qeyd etdi ki, 20-dən çox ölkədə separatizm silahlı toqquşmalarla müşahidə olunur. Eləcə də, Dağlıq Qarabağ



münaqişəsi qeyd edildi. Təəssüf ki, 25 il keçməsinə baxmayaraq, işğal faktı aradan qaldırılmamış vəziyyətdədir. Əgər etnik separatizmə, terrorizmə bu gün düzgün qiymət verilməsə, işğalçı öz adı ilə çağırılmasa, dünyanın nizamı daha çox pozulacaq. Kataloniya problemi ortaya çıxanda, Azərbaycan beynəlxalq hüququ müdafiə etdi. Eləcə də, digər beynəlxalq təşkilatlar yalnız İspaniyanı dəstəklədilər. Belə olduğu halda isə, Ermənistana qarşı eyni münasibət bəslənilmir".

"Necə ola bilər ki, BMT-nin baş katibi Ermənistan və Azərbaycan prezidentlərini eyni cür qəbul edir və eyni münasibət bəsləyir?"-deyə sual edən Rufiz Qonaqova görə, hətta fikirlər səslərdirir ki, Ermənistan terrorla mübarizəyə böyük töhfələr verib. Halbuki Ermənistanın dəstəklədiyi "ASALA" kimi terror təşkilatı var: "Həmçinin, Azərbaycan torpaqlarının işğalı faktı göz önündədir. Azərbaycan isə, kiminsə torpaqlarını işğal etməyib. Gərək etnik separatizm Avropanın mərkəzinə çatsın ki, onlar problemin yalnız bir ölkənin dərdi olmadığını anlasınlar. Bu, artıq Avropa üçün də böyük təhlükədir. O baxımdan, ümid edirik ki, Kataloniya rəhbərliyinə qarşı atılan addım Ermənistan rəhbərliyinə qarşı da atılacaq. Çünki Azərbaycanın ərazi bütövlüyünü bütün dünya ölkələri tanıyır. Dünya birliyi tərəfindən ərazi bütövlüyünə qarşı təhdidlər pislənməsə, dünyanın nizami birdəfəlik pozulacaq. O zaman həmin beynəlxalq təşkilatlara da ehtiyac qalmayacaq. Belə olduğu halda, məlum olacaq ki, həmin qurumlar yalnız imitasiya ilə məşğuldur. Proseslər yeni dünya müharibəsinə qədər dərinləşə bilər. Ona görə də, beynəlxalq təşkilatların buna getməsi inandırıcı deyil. Artıq təhlükə öz ərazilərini bürüyüb. Problemin qarşısının birdəfəlik alınmasından başqa yol yoxdur".

**R.RƏSULOV**



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Suallar qarşısında acizlik və ya riyaziyyatdan "2"!!!

***Azərbaycanda fəaliyyət göstərən dağıdıcı müxalifət partiyalarının bəzi məkrli xarici dairələrin "zombi"ləşmiş "filial"ı kimi fəaliyyət göstərməsi zaman-zaman faktlarla öz təsdiqini tapmışdır. Müsəlman-türk ölkələrinə inqilablar icra etməyə çalışan xarici təxribatçı dairələrin maraqlarına xidmət edən və Azərbaycanda xaos yaratmağa çalışan dağıdıcı müxaifət partiyalarının "lider"ləri öz antimilli əməllərini gizlətməyə çalışsalar da, inkaredilməz faktlar başqa söz deyir.***

Heç vaxt maliyyə hesabatı verməyən AXCP sədri Əli Kərimli açıqlanan faktlar qarşısında şər-böhtan maşınını işə salmaqdan başqa bir şey bacarmır. Ancaq bir çox suallar hələ də açıq qalır...Bank maxinasiyaları...xarici dairələrdən alınan pul-paralar və daha nələr, nələr. Məhz bu baxımdan, hesab etmək mümkündür ki, ölkəmizdə normal müxalifətçiliyin formalaşmasına mane olan əsas şəxslər, məhz AXCP sədri Ə.Kərimli və Müsavatın sabiq başqanı İ.Qəmbərdir. Özlərini nə qədər "demokratiya carçısı" kimi göstərməyə çalışsalar da, xalqı aldatmaq mümkün deyildir. Bütün addımları ilə antimilli olduqlarını əyani şəkildə faktlarla sübut edən bu şəxslər, uzun illərdir ki, ətraflarındakı başısoyuq adamların boğazına kəndir salıb, sağa-sola fırladırlar. Məsələ bundadır ki, özlərini "əsas" müxalifət partiyaları adlandıran Müsavat, AXCP, KXCP və digər bu tip siyasi təşkilatlar heç vaxt maliyyə hesabatları vermirlər, kağız üzərində, yalnız ildə iki dəfə mitinqlər keçirməklə, yaxud öz nəzarətlərində olan mətbu orqanlarda şantaj və şər-böhtan xarakterli bəyanatlar verməklə, işlərini bitmiş hesab edirlər. Misal üçün, Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov dəfələrlə öz çıxışlarında bildirib ki, hər bir partiya Mərkəzi-Seçki Komissiyasına maliyyə hesabatını təqdim etməlidir: "Əfsuslar olsun ki, bir sıra partiyalar, ümumiyyətlə maliyyə hesabatı vermir. Bəziləri isə verdikləri hesabatın qarşısında sıfır rəqəmi yazırlar. Halbuki kifayət qədər işçiləri var, fəaliyyət göstərir və gündəlik işləyir. Bunlar gedib gündüzlər müəllimlik edib, sonra işləmirlər. Səhərdən-axşama qədər ofislərində fəaliyyət göstərirlər. Amma adına əməkhaqqı yoxdur. Yəqin hava ilə yaşayırlar. Bu baxımdan, digər partiyaların balansında maşınları, cangüdənləri və böyük ştatlı aparatları var. Bu, qeyri-şəffaflığa yol açır və qaranlıq mənbələrdən qidalanmanın bariz nümunəsini ortaya qoyur".

Söz yox ki, dağıdıcı müxalif partiya rəhbərləri, həqiqətən də, özlərini gülünc vəziyyətə salırlar. Axı heç yerdən pul almadığını iddia edən dağıdıcı müxalifət partiya sədrləri bəs 4 mühafizəçini, ofis işçilərini necə saxlayır və onlara necə maaş verirlər? Həqiqətən də, ildə iki dəfə-yazda və payızda cücərən partiyalar öz fəaliyyətsizliklərini müxtəlif üsullarla pərdələməyə çalışırlar". Siyavuş Novruzov onu da haqlı olaraq bildirib ki, Azərbaycanda bəzi fəaliyyətsiz partiyaların fəaliyyəti dayandırılacaq: "Azərbaycanda 100-ə yaxın partiya var və onlardan 54-ü qeydiyyatdan keçib. Yəni 46 partiyanın qeydiyyatı yoxdur. Qeydiyyatda olanların böyük əksəriyyəti isə kağız üzərində fəaliyyət göstərir. Partiya nizamnaməsinin qarşıya qoyduğu tələblər-seçkidə iştirak, kadrların hazırlanması, alternativ layihələrin verilməsi və digər bu formada olan məsələlər yerinə yetirilmir. Təəssüflər olsun ki, onlar heç bir işlə məşğul olmurlar. Ancaq aradabir bəyanat verməklə, funksiyalarını başa çatmış hesab edirlər. Bu baxımdan, dünyanın hər yerində, məsələn, Avstriyada iki il belə fəaliyyət göstərən partiyaların qeydiyyatı avtomatik olaraq ləğv edilir. Yaponiyada, o cümlədən, onlarla ölkədə prosedur ləğv edilir".

"Beşinci kolon" üzvlərinin, anti-milli qüvvələrin atdığı son addımlardan görünür ki, onlar yeni təlimatlar alıblar. Bu gün Azərbaycanda ən mötəbər tədbirlərdən biri keçirilir. Xarici turistlər ölkəmizə axışırlar. Ölkəmizi daha yaxından tanımaq üçün yeni fürsət yaranır, Azərbaycan dövlətinin tolerantlığı və iqtisadi gücü bir daha dünyaya nümayiş olunacaq. Bu isə, dağıdıcı müxalifətə sərf etmir, ona görə də, "beşinci kolon" üzvləri dövlətimizi ləkələmək və xarici qonaqların təsəvvüründə mənfi təəssüratlar yaratmaq üçün əllərindən gələni etməyə çalışırlar. Heç şübhəsiz ki, antimilli qüvvələrin bu niyyətləri də puç olacaq. Doğma ölkəsinə qarşı əsl düşmənçilik mövqeyi ortaya qoymaq, hətta taleyüklü məsələlərdə belə ermənipərəst mövqeyi ilə gündəm yaratmağa cəhd etmək heç kimə başucalığı gətirməyib və heç şübhəsiz dağıdıcı mövqeləri ilə seçilən cəbhəçilərə və müsavatçılara da gətirməyəcək. Hər halda, 2018-ci il seçkiləərində növbəti oyunbazlıq etmək yerinə, nəticə çıxarmağın da zamanıdır. Yəqin, bunlar qarşıdan gələn seçkilərdə nəyəsə nail olacaqlarını hesab edirlər. Ancaq unudurlar ki, hesab etmək məsələsində riyaziyyat fənni üzrə aldıqları qiymət "2"-dir!!!

# Əli Kərimliyə məxsus “Milli Şura”da Cəmil Həsənlinin sədrliyi formal xarakter daşıyır

***Bu gün Azərbaycanın dağıdıcı müxalifəti yanlış yol tutub və yalnız mənafeni, şəxsi maraqlarını əsas tuturlar. “Milli Şura”nın rəhbərləri olan Əli Kərimli və Cəmil Həsənli müxalifətçiliyi şəxsi qərəzlik, kin-küdurət və şəxsi münasibətlə qarışdırıblar.***



Ə.Kərimli artıq bütün müxalifət partiyalarından kənar bir ittifaq yaratmaq istəyir və buna görə də, mümkün qədər digər partiyalardan uzaqda qərarlaşmağa çalışır. Ə. Kərimli 2013-cü il prezident seçkilərindən sonra “ana müxalifət lideri” olmaq arzusuna düşüb və ona görə də, bütün müxalifət partiyalarını kənarlaşdırır ki, bir tərəfdə özünü rahat şəkildə lider elan etsin. Çünki Kərimli gözəl başa düşür ki, 100-ə yaxın siyasi partiyalar və onların funksionerləri olan yerdə heç vaxt əsas lider kimi önə çıxa bilməyəcək. Ambisiyaları səbəbindən, artıq heç kimin ona yaxın durmadığını yaxşı başa düşdüyü üçün, Ə.Kərimlinin Cəmil Həsənli kimi tez-tez öz mövqeyini, yolunu, əqidəsini dəyişə bilən birindən istifadə etməkdən başqa çarəsi qalmır. Çünki indi pafosla dəyərləndirdiyi AXC sıralarını bir anda deputat mandatına satmaqda, milli maraqları xarici qüvvələrlə işbirliyinə qurban verməkdə mahir olan C.Həsənlidən daha mövqesiz birini tapmağa ümidi belə yoxdur. Həm də Həsənli Kərimliyə tən olmasaydı, aforizmdə deyildiyi kimi, gen olardı.

## İstifadə etmək, sonra da lazımsız olduqda atmaq və unutmaq Əli Kərimli ənənəsinin əsasını təşkil edir

Utanmadan özünü mərhum Əbülfəz Elçibəyin partiyasının rəhbəri, onun davamçısı kimi cəmiyyətə sırımağa çalışan, 1993-cü ildə qiyamçı Sürət Hüseynovun qorxusundan Kələkiyə qaçan və məhz Elçibəyin qardaşı Almurad Əliyevin evinə pənah aparan, uzun müddət bu ailənin qayğısı ilə yaşayan Ə.Kərimli, A.Əliyev dünyasını dəyişəndə onun dəfn mərasimində belə iştirak etmədi. İstifadə etmək, yalnız yararlanmaq, sonra da lüzumsuz hesab edərək, atmaq və unutmaq Ə.Kərimli ənənəsinin əsasını təşkil edir. Yeri gəlmişkən, Elçibəyin prezidentliyi dövründə AMİP-ə xəyanət edib, AXC-yə keçən C.Həsənli də dəfndə görünmədisə, deməli, Kərimli heç də öz xisləti ilə təkrarolunmaz nüsxə, nümunə deyil və onun C.Həsənli kimi bir tayı da var. Diqqəti, qayğını, xidməti, yaxşılığı unudanlar etibarsız simaları ilə tanınır və bu xüsusiyyətlərinə görə nəinki ictimaiyyətin və xalqın, hətta bir-birilərindən başqa kimsənin dəstəyinə ümid etmələri onların yalnız utopik deyil, həm də düşüncəsiz olduqlarından xəbər verir.

## İstifadəyə yararsız olduğu andan şura sədri də səhnədən kənarlaşdırılacaq

Görünür, eyni xislətdə və eyni simada olan bu iki müxalifət təmsilçisi özlərini eyni ampluada çox rahat hiss edir. Amma C.Həsənli bunun da fərqində olmalıdır ki, mənəvi dəyərlər, dostluq münasibətləri, ideya tərəfdaşlığı və mövqe kimi prinsiplər Ə.Kərimli üçün heç də maraqlı deyil və istifadəyə yararsız olduğu andan etibarən Kərimli onun özünü də güya ki, eyni rolu bölüşdürdüyü bu səhnədən uzaqlaşdıracaq. Qiyamçının qorxusundan qaçıb sığındığı, uzun müddət onun qayğısına qalan ailəni, artıq ehtiyac olmadığında unutduğu kimi, Həsənlinin fəaliyyətini də, onun şəxsi maraqlarına xidmətini də, hətta özünü də unudacaq. Amma bütün bunların fərqində olmadığı üçün C.Həsənli Ə.Kərimliyə sədaqətlə xidmət etməkdə davam edir və onun ssenarisinə uyğun fəalyyət göstərir. Maraqlarının təmin olunmasına nə qədər xidmət etsə də, AXCP sədrinin Həsənli ilə bölüşmək fikri olmayıb, heç olmayacaq da.

C.Həsənlinin, hətta formal xarakter daşıyan sədrliyi də itirəcəyi istisna edilə bilməz. Səlahiyyətləri olmayan “şura” sədrliyinin çox uzun sürməyəcəyini, ola bilsin ki, Həsənli özü də başa düşür. Amma, başa düşsə də, düşməsə də səlahiyyəti olmayan sədrliyi necə qəbul etdiyini, yalnız Ə.Kərimliyə siyasi dividend gətirməyə xidmət edən bu fəaliyyətini başa düşmək çətindir.

***İnam Hacıyev***

# Corc Soros Leyla Yunusu təxribatlar törətməyə təhrik edir

*Mütəllim Rəhimli: “Xaricdən parçalanmış müxalifəti idarə edərək, öz məkrli maraqlarının həyata keçirilməsinə yönəltmək asandır”*



Son vaxtlar qondarma hüquq müdafiəçiləri Xədicə İsmayıl, Leyla Yunus və digərləri Azərbaycana qarşı şər və böhtan xarakterli ittihamlarını daha geniş şəkildə işlətməyə başlayıblar. Faktlar və araşdırmalar təsdiq edir ki, onları danışdıran “Soros” fondudur. Daha doğrusu, Corc Sorosun qondarma hüquq müdafiəçilərinə ayırdığı vəsait onları ölkəmizə qarşı əsassız ittihamlar səsləndirməyə həvəsləndirib. “Ədalət” partiyasının aparat rəhbəri Mütəllim Rəhimli “Səs” qəzetinə açıqlamasında X.İsmayıl və L.Yunusun məkrli iddialarının arxasında AXCP sədri Ə.Kərimlinin və Müsavat başqanı A.Hacılının dayandığını bildirdi: “Məlum olduğu kimi, növbəti il Azərbaycanda prezident seçkiləri keçiriləcək. Seçkilər qabağı hər bir ölkəyə beynəlxalq qurumlar tərəfindən hansısa bir formada təzyiqlər göstərməyə çalışırlar. Qərəzli təşkilatlar o ölkədəki ələbaxım radikal düşüncəli şəxslərə öz dəstəklərini verirlər ki, nə isə xoşagəlməz bir vəziyyət yaratsınlar. Bu baxımdan, demək olar ki, X.İsmayılın, L.Yunusun və digərlərinin Azərbaycana qarşı şər və böhtan xarakterli ittihamlar səsləndirmələri 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə bağlıdır”.

M.Rəhimli onu da bildirdi ki, müxalifət düşərgəsində də maraqlar həddindən artıq bir-birindən fərqlənir: “Həm ideoloji yönümünə, həm də münasibətdə olduqları beynəlxalq təşkilatlardan bunlara gələn sifarişlərə görə fərqlənir. Amma elə məsələlər var ki, həmin məsələlərə görə də bir-birlərindən xoşları gəlməsə belə, yenə də birləşirlər. Bir-birindən xoşu gəlməyən müxalifət təmsilçilərinin də birləşmələri onların ümumi maraqlarının ifadə etməkdən irəli gəlir. Yəni üzdə bir, əməldə başqa rol oynayırlar”.

M.Rəhimli onu da bildirdi ki, ölkə müxalifətinin pərakəndə halda fəaliyyət göstərməsini müşahidə edirik: “Radikal müxalifət düşərgəsini təmsil edən şəxslərin, pərakəndə olması da, onların biri-birini qəbul etməməsi ilə bağlıdır. Müxalifət təmsilçiləri birləşərək birgə fəaliyyət göstərmirlər. Onların arasında vahid mövqein olmaması liderlərin şəxsi ambisiyalarından irəli gəlir. Bu ambisiyalar da, bir çox hallarda, müxalifət liderlərinin özlərinin daha yaxşı yaşamaq istəyi ilə bağlıdır. Müxalifət düşərgəsində cərəyan edən proseslərə nəzər yetirdikdə, ən yaxşı yaşayanların yalnız partiya sədrlərinin olduğunu görmək olar. Digərləri burada heç nə əldə etmirlər. Bu da, onu göstərir ki, partiya sədrləri əlaqələr qurduqları kanallardan gələn sərvətləri yalnız öz altlarına yığaraq mənimsəyirlər. Bu prizmadan yanaşanda, biz müxalifət partiyalarının daimi olaraq bölündüyünü və ya hətta bir sədrdən ibarət partiyaların olduğunu görürük. Xaricdən parçalanmış müxalifəti idarə edərək, öz məkrli maraqlarının həyata keçirilməsinə yönəltmək asandır və bu da pərakəndə müxalifətin maraqlı xarici dairələr tərəfindən idarə edilməsinə gətirib çıxarır. Hazırkı məqamda dağıdıcı müxalifətin bölünmüş vəziyyətdə olduğunu görürük. Yəqin ki, bu cür acınacalı vəziyyət dəyişməsə, yenidən əksər müxalifət partiyalarının parçalanması və ya fəaliyyətlərini dayandırması şübhəsizdir”.

***GÜLYANƏ***

# Əli Kərimlinin Muqabe bənzərliyi

*Yaxud 16 illik kreslo sevdalısı*

***Maraqlı məqamlardan biri də odur ki, AXCP sədri Ə.Kərimli nədənsə Zimbabvenin devrilmiş prezidenti Muqabeyə görə kəskin sevinc hissləri keçirir. Bəlkə heç zimbabveli müxalifətçilər elə sevinmirlər ki, cəbhə sədri bir o qədər sevinir. Misal üçün, əgər Zimbabveyə gedib ZXCP partiyasının (Zimbabve Xalq Cəbhəsi Partiyası-R.N.) kərimliyəbənzər fizionomiyalarını seyr etsək, həmin fizionomiyaların bir-birlərindən necə fərqləndiklərini görmüş olarıq. Bunun isə əlbəttə ki, səbəbləri var...***

## ZXCP-nin sədri Mqanulo Mqabadada AXCP sədri Əli Kərimliyə nə deyəcək..?

Yəqin Ə.Kərimli AXCP adından ZXCP “lideri”nə şanlı məktub da hazırlayıb. Həmin məktubda ZXCP sədri Mqanulo Mqabadadanın sağ əlinin AXCP sədri Ə.Kərimlinin başına toxunulmasından tutmuş bir çox arzular yer alıb. Amma bir məsələ unudulub. Unudulan budur ki, Afrikanın siyasi iqlimi ilə Azərbaycanın iqlimi heç vaxt üst-üstə düşə bilməz. Hətta indi Ə.Kərimliyə sual etmək lazımdır ki, ay Əli, bəs 16 ildir liderin mərhum Əbülfəz Elçibəyi ən alçaq üsullarla siyasi məhvə yönəldən sən deyilmiydin? Bu 16 ildə bərkbərk yapışıb-qaldığın kreslonu buraxmadığın halda, hansı “demokratik dəyərlərə” əsaslanaraq, Muqabenin gedişini “demokratiyanın qələbəsi” adlandırırsan? Bəs, deməzsən ki, birdən ZXCP-nin sədri Mqanulo Mqabadada araşdırar səni və göndərdiyin şanlı məktubu qaytarıb, vurar başına? Hətta belə olsa, Zimbabve demokratiyası, həqiqətən də, avtoritar partiya idarəçiliyi üzərində qələbə çalar! Məsəlçün, deyilə bilər ki, AXCP sədri Ə.Kərimli kimi avtoritar rejim quran partiya sədrinin təbrik məktubu bizə lazım deyil, aparsın həmin məktubu ayaqyolunda-zadında istifadə etsin. Bu, ən azından, ən yumşaq cavab olar. Gör bundan betər cavab necə olar eee!





## Bu uzaq Afrika ölkəsinin tropik küləyi heç Uqandaya, yaxud da Seneqala belə çata bilməz...

Nə isə, deyəsən cəbhəçilər hələ bir neçə gün sonra da Zimbabvedə ZXCP-nin qələbə qazanmasını bayram edəcəklər. Vaxtilə Zimbabvedən qat-qat yaxın olan Ukraynada da “Maydan” hadisələri baş verərkən, Ə.Kərimli və yan-yörəsindəkilər eyni toy-bayramlar etməklə məşğul idilər. Elə bilirdilər ki, “Maydan” küləyi üzü bu yana da əsəcək. Amma əsmədi və əsə də bilməzdi...

O da ola Zimbabve! Bu uzaq Afrika ölkəsinin tropik küləyi heç Uqandaya, yaxud da Seneqala belə çata bilməz ki, o da ola gəlsin Azərbaycana. Hə, yeri gəlmişkən, Ə.Kərimlinin bu cür düşük və mənasız siyasi baxışları ortaya çıxarkən, az keçməmiş onun partiyasında tələtümlər baş qaldırır. Deyəsən, bu adamın başı Mqanulo bəyi təbrik etməyə bərk qarışdığı üçün, AXCP-də baş verən ziddiyyətləri görmür. Bu gün-sabah Ə.Kərimlinin işğal etdiyi 16 illik sədrlik kreslosunun ayaqları tərpənməyə başlayıb. İnanmırsınızsa, çox qısa zamandan sonra həmin ayaqların şırıpıltıyla qırılıb, Kərimlini necə yerə çırpılmasını öz gözlərinizlə görəcəksinmiz. Gözləyək və görək...

***Rövşən NURƏDDİNOĞLU***

# Mətbuat azadlığı uğrunda tarixi mübarizənin real məzmunu

***Azərbaycanda həyata keçirilən düzgün, məqsədyönlü siyasət nəticəsində bütün sahələrdə uğurlu nəticələrə nail olunub. Təsadüfi deyil ki, son illər iqtisadi uğurların nəticəsi olaraq əhalinin sosial-iqtisadi durumu daha da yaxşılaşıb, "Maden in Azerbaijan" brendi ilə əksər xarici ölkələrə ixracatının həcmi artıb. İslahatlar, əldə olunan naliyyətlər KİV-in müasir dövrün tələblərinə uyğun fəaliyyətini qurmasına da öz töhfələrini verib. Kütləvi informasiya vasitələrində fikir demək, hadisələrə münasibət bildirmək üçün qeyri-məhdud imkanlar vardır. Qanunvericilik aktlarında, bu istiqamətdə imzalanan Prezident Fərman və Sərəncamlarında informasiya azadlığı və onun təmin olunması dövlətimizin ali məqsədlərindən biri kimi təsbit edilmişdir. Fikir və söz azadlığı məlumat azadlığı ilə üzvi surətdə bağlıdır.***

Məlumat azadlığının tərkib hissəsi isə informasiya əldə etmək hüququdur. Ümummilli Liderimiz Heydər Əliyevin müəllifliyi ilə hazırlanan və qəbul edilən ilk Konstitusiyanın 50-ci maddəsində ölkə vətəndaşlarının söz, məlumat toplamaq, öz rəyini sərbəst ifadə etmək hüquqları təsbit olunub. "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə əsasən, Azərbaycanda kütləvi informasiya vasitələri azaddır. Bu azadlıq ölkə vətəndaşlarının qanuni yolla informasiya axtarmaq, əldə etmək, hazırlamaq, ötürmək, istehsal etmək və yaymaq hüququna dövlət tərəfindən verilən təminata əsaslanır. Qüvvədə olan qanuna əsasən, kütləvi informasiya vasitələrinin təsis olunması, onlara sahiblik, onların idarə edilməsi, onlardan istifadə qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla məhdudlaşdırıla bilməz.

## "Əkinçi"dən başlayan tarixi inkişaf

Azərbaycan xalqının söz və mətbuat azadlığı uğrunda tarixi mübarizəsinin real məzmun kəsb edərək praktik surətdə gerçəkləşməsi isə XIX əsrə təsadüf edir. Bakıda ilk rus qəzetinin nəşrinədək Azərbaycan xalqının iqtisadi və mədəni həyatına aid faktları Tiflisdə çıxan rus qəzetləri əks etdirirdi. XIX əsrin 20-ci illərindən başlayaraq "Tiflisskiye vedomosti", "Zakavkazski vestnik", "Kavkaz", "Novoye obozreniye" və başqa qəzetlərdə Azərbaycan xalqının ədəbi həyatına aid yazılar əhəmiyyətli yer tuturdu. 1832-ci ildə Tiflisdə Azərbaycan dilində nəşr olunan belə qəzetlərdən biri də "Tiflis əxbarı" qəzeti idi. Lakin çarizmin ideoloji-siyasi təsiri altında olan bu qəzetlərin mövcudluğu ilə barışmayan Azərbaycan xalqı özünün milli mətbuatını yaratmaq üçün uzun illər mübarizə aparmalı olmuşdur. Məhz bu mübarizənin nəticəsi olaraq da 1875-ci il iyulun 22-də görkəmli ədib və ziyalı Həsən bəy Zərdabinin təsisçiliyi və baş redaktorluğu ilə Azərbaycanın ilk mətbuat orqanı - "Əkinçi" qəzeti işıq üzü görmüşdür. Həsən bəy Zərdabi və onun məsləkdaşları Azərbaycan xalqını gerilikdən çıxarmaq, cəhalət və mövhumata ağır zərbə vurmaq, yeniliyi təbliğ etmək kimi çətin vəzifəni üzərlərinə götürmüşdülər. "Əkinçi"nin səhifələrində xalqa zülm edən bəylər, mülkədarlar kəskin tənqid edilir, insanların elm, təhsil, savad alması, maariflənməsinin vacibliyi geniş təbliğ edilirdi. Məhz buna görə də, qəzet çarizmin aşkar təzyiq və təhdidləri ilə üzləşir, çapına ciddi maneələr törədilirdi. Bu təzyiqlərin şiddətlənməsi nəticəsində Həsən bəy Zərdabi 1877-ci ildə "Əkinçi"nin nəşrini dayandırmalı oldu. Görkəmli ziyalı 1905-ci ildə "Həyat" qəzetində çap etdirdiyi "Rusiyada əvvəlinci türk qəzeti" adlı məqaləsində "Əkinçi"ni nə məqsədlə nəşr etdiyini, qarşıya çıxan çətinlikləri və çar senzurasının təqiblərini açıb göstərmişdir.



## "Mətbuat cəmiyyətin güzgüsüdür"

Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini qazandıqdan sonra, tarixi ənənələrini yaratmaq və inkişaf etdirmək kursu götürdü.

Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı mətbuatımızın inkişaf tarixində də yeni bir mərhələnin əsasını qoydu. Ümummilli Lider Heydər Əliyev müstəqil mətbuatın inkişafını demokratiyanın tələbi kimi dəyərləndirərək, bu sahəyə diqqətini əsirgəmədi. Belə ki, milli və bəşəri dəyərləri rəhbər tutan Azərbaycan mətbuatı demokratiya və aşkarlığın mühüm vasitəsi kimi xalqımıza öz ali məqsədlərini həyata keçirmək yolunda bələdçi olub, müstəsna xidmətlər göstərib.

"Mətbuat cəmiyyətin güzgüsüdür" çağırışı Ulu Öndərin ən çox dəyər verdiyi ifadələrdən idi. Əsl və peşəkar jurnalistlərdən əsas tələbi də bu idi ki, heç vaxt, heç bir ləkə bu güzgünün təmizliyinə və saflığına ləkə gətirməsin. Humanist olduğu qədər ədalətsizliyə, əsası olmayan saxta informasiyalara, böhtan və yalanlara qarşı barışmaz olan Ümummilli Lider Heydər Əliyevin mübarizliyi bu sahədə də özünü büruzə verirdi. Söz və mətbuat azadlığının inkişafına əngəl olan, süni maneələrin aradan qaldırılması üçün qanunvericilik bazasının təkmilləşdirilməsini təmin etdi, vətəndaş cəmiyyətinin quruculuğunu özünün inkişaf modeli seçən Azərbaycanda KİV-lərin rolunun artırılmasını başlıca məqsəd kimi qarşıya qoydu. "Bizim ümumi məqsədimiz mətbuata daha da çox azadlıq vermək, söz azadlığını daha geniş təmin etmək, Azərbaycanda demokratiyanı bütün sahələr üzrə inkişaf etdirməkdən ibarətdir" söyləməklə açıq sözün, həqiqəti əks etdirən informasiyaların tərəfdarı, mətbuat azadlığının qarantı olduğunu bəyan edirdi. Ümummilli Lider Heydər Əliyev jurnalistləri dövlət mükafatları, orden və medallarla təltif etməklə bildirirdi ki, KİV-lərə qayğı davamlı və sistemlidir. Ulu Öndər Heydər Əliyevin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı", həmçinin, 1998-ci il avqustun 6-da imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman ölkəmizdə söz, mətbuat, fikir azadlıqlarının təminatına əlverişli şərait yaratmış, keçmiş SSR- i respublikaları arasında ilk dəfə olaraq, Azərbaycanda senzura ləğv olunmuşdur. 2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyinin ləğv olunması isə dövlətin mətbuat üzərində nəzarətinə tamamilə son qoymuşdur. 1999-cu ildə "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununun, sonrakı dövrlərdə isə "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında", "Məlumat azadlığı haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında" Azərbaycan Respublikasının qanunlarının qəbul edilməsi ilə kütləvi informasiya vasitələri cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilmişdir. Dahi şəxsiyyətin 2000-ci il 6 mart tarixli Sərəncamı ilə təsdiq edilən "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üçün Tədbirlər Proqramı" isə bu sahənin maddi-texniki bazasının gücləndirilməsində mühüm rol oynamışdır. "Bizim dövlət siyasətimizin əsas məqsədlərindən biri Azərbaycanın mütərəqqi mətbuat ənənələrinin davam etdirilməsi və müasir beynəlxalq təcrübə ilə zənginləşdirilməsi, KİV-in maddi-texniki vəziyyətinin yaxşılaşdırılması, onların imkanlarından respublikada hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşdırılması və inkişafı, demokratik islahatların həyata keçirilməsində səmərəli istifadə edilməsindən ibarətdir" söyləyən Ulu Öndər Heydər Əliyev azad mətbuatın inkişafına diqqət göstərərək, uğurlu nəticələrə nail olmuşdur. Ulu Öndər Heydər Əliyev Azərbaycanda milli mətbuatın daha da inkişaf etdirilməsi sahəsindəki xidmətlərinə görə, 2002-ci ildə "RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi tərəfindən "Jurnalistlərin dostu" mükafatına layiq görülmüşdür.

## Mətbuat demokratiya və siyasi plüralizmin mühüm vasitəsi kimi çıxış edir

Birmənalı şəkildə demək olar ki, bu gün Ulu Öndər Heydər Əliyevin mətbuat və söz azadlığı sahəsindəki siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir, kütləvi informasiya vasitələrinin müstəqil fəaliyyəti, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etmələri üçün hərtərəfli şərait yaradılır. Söz və mətbuat azadlığını yüksək qiymətləndirən ölkə Prezidenti demişdir: "Bütövlükdə, söz və informasiya azadlığı hər bir ölkə üçün, ölkənin inkişafı üçün ən vacib olan məsələlərdən biridir. Söz və informasiya azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması Azərbaycanda çox vacib olan məsələlərdir. Mən hesab edirəm ki, bu sahədə ölkəmiz çox böyük və uğurlu yol keçmişdir".

Cənab İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı ilk gündən azad mətbuatın inkişafına yönəlmiş bu siyasətə sadiq olduğunu atdığı addımları ilə təsdiqlədi. "Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin inkişafına Dövlət Dəstəyi Konsepsiyası" buna əyani sübutdur. "Söz və mətbuat azadlığı demokratik cəmiyyətin prioritet dəyərlərindən biridir. Zəngin tarixi və mütərəqqi ənənələri olan Azərbaycan mətbuatı ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda demokratiya və siyasi plüralizmin mühüm vasitəsi kimi çıxış edir. Cəmiyyətdə aşkarlığın və şəffaflığın təmin edilməsində, aktual ictimai problemlərin ümumxalq müzakirəsinə çıxarılmasında, sosial ədalət prinsiplərinin müdafiəsində Azərbaycan mətbuatının rolu xüsusi qeyd olunmalıdır" - deyən Prezident İlham Əliyevin bu fikirləri dövlət başçısının ölkəmizdə mətbuat azadlığının ən böyük təminatçısı olduğunu bir daha nümayiş etdirir.

Ölkə Prezidenti İlham Əliyevin Fərmanı ilə Azərbaycan Respublikası Prezidentinin yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması mətbuatın inkişafına göstərilən diqqət və qayğının bariz nümunəsidir. Milli mətbuatımızın 135 illiyinin ölkəmizdə dövlət səviyyəsində qeyd olunması, jurnalistlərin mənzil şəraitinin yaxşılaşdırılması, fəxri adlarla təltif olunmaları haqqında sərəncamların imzalanması və bu kimi biri-birindən əhəmiyyətli addımlar qeyd etdiklərimizin təsdiqidir. Milli mətbuatımızın 138 illiyində jurnalistlər üçün tikilmiş binanın istifadəyə verilməsi, mətbuatın yaradılmasının 140 illiyi münasibəti ilə onlarla jurnalistin Prezident İlham Əliyevin Sərəncamı ilə dövlətin orden və medalları ilə, fəxri fərmanlarla təltif edilməsi, 256 jurnalistin mənzillə təmin olunması mətbuatın inkişafına və jurnalistlərin əməyinə verilən yüksək qiymətin nəticəsidir. Təbii ki, Azərbaycan jurnalistləri bu qayğıdan ruhlanaraq fəaliyyətlərini daha da genişləndirəcək, peşəkarlıq səviyyəsini artıracaq, başlıcası isə, işlərini dövlətə və milli maraqlara xidmət üzərində quracaqlar.

***Mahirə Cəfərova***
***Yazı Azərbaycan Respublikasının Prezidenti yanında KİV-lərin inkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqə üçün***

TƏRS BAXIŞ

# Alınan və satılan "lider" - AXCP sədri Əli Kərimli!

***Dünyada elə şəxsiyyətlər olub ki, illər, qərinələr, hətta əsrlər keçsə belə, onların insanlar üçün gördükləri işlər bu gün də öz səmərəsini verir. Hətta həmin şəxsiyyətlər haqqında geniş, əhatəli, məzmunlu əsərlər yazılır və adları əbədiləşdirilir. Ancaq elə kəslər də olur ki, onların adları çəkiləndə, lənət və nifrinlərdən başqa heç nə eşitmək olmur. Kimdir onlar: insan, yoxsa iblis? Azərbaycanın dağıdıcı müxalif partiya sədrlərinin, xususilə də, AXCP sədri Əli Kərimlinin xəyanət xronologiyasına nəzər salsaq, suallara açıq şəkildə cavab tapmaq olar.***

AXCP sədri Ə.Kərimli hər an Azərbaycanın milli maraqlarını satmağa hazır olduğunu nümayiş etdirib. O və müttəfiqləri yalançı və qısa ömürlü birliklər yaradaraq, pafoslu çıxışlar edir, əslində isə, bir-birilərindən xarici pulverənlərə kompromat ötürmək uğrunda mübarizə aparırlar. Hər bir tərəf bu mübarizədə önə çıxmaq barədə düşünür və bu məqsədlə də əlindən gələni edir. Sözün açığı, onun siyasi fırıldaqçılıq üsullarına şeytan da həsəd aparar. Bunu uzun müddət Ə. Kərimli ilə bir cəbhədə təmsil olunanlar da bəyan ediblər. AXCP sədri tək öz xalqına, vətəninə deyil, amalına, məsləkinə, dostluğuna və yoldaşlığına qarşı da xəyanət yolu tutub.

## Mənəviyyatsızlığın aşkar simvolu!

AXCP sədri Ə.Kərimlinin mənəviyyatsızlıq simvolu olmasını isbat etməyə ehtiyac yoxdur. Cünki onun Azərbaycana qərəzli mövqedə dayanan xarici ölkələrin əlində fiqura çevrilməsi və təxribatçı qüvvələrə birgə çalışmasını təsdiqləyən çoxsaylı faktlar movcuddur. "Siyasi karyerasında", xüsusilə, ermənilərlə işbiriyini təsdiq edən amillər istənilən qədərdir. Bu baxımdan növbəti dəfə onun əməllərinin sübuta ehtiyacı yoxdur. Dağıdıcılıq, ziyankarlıq və xəyanət missiyasını daim tətbiq edərək, düşərgədə qarışıqlıq yaradan Ə.Kərimlini silahdaşları belə heç vaxt önəmli fiqur kimi qəbul etmirlər. Azərbaycanda "Demokratiyanın İnkişafı Fondu"ndan aldığı pulları mənimsəyərək, başqalarına böhtan atmaqla məşğul olan, "erməni lobbisinin fəxri üzvü, dayısı" adını daşımaqdan utanmayan bu "siyasətçi" həmişə şəxsi maraqlarına görə dövlətçiliyimizə xələl gətirir. Ermənilərdən başqa dünyada məşhur olan terrorçu qrup və islami təşkilatlarla da əlaqə yaradaraq, Azərbaycana qarşı böhtan kampaniyasında fərqləndiyi üçün "xidmətləri" də əvəzsiz qalmır.

1995-ci ildə AXC-nin mirasına sahib olmaq, partiyaya çevirərək parlamentdə mandat qazanmaq üçün həyata keçirdiyi məkrli planlar nəticəsində, Xalq Cəbhəsi dörd yerə bölündü. Cəbhənin möhürünə sahib olmaq üçün ətrafındakılara qarşı təxribatlar törədərək, "cəbhənin gələcəyi Ə.Kərimli ilə bağlıdır" təbliğatına start verdirdi. Xarici havadarlarından aldığı maliyyə dəstəyi ilə sələfi Elçibəyə qarşı təxribat kampaniyası aparan Ə.Kərimlinin yaratdığı AXCP daxilindəki "Yurd" fraksiyası isə tam səlahiyyətlərə nail olmaq üçün bir gediş idi. İlk növbədə, onun riyakar planlarından xəbər tutanları istefaya məcbur edib, cəbhədən uzaqlaşdırmaqla özü üçün rahat mühit yaradan islahatçı sədr digər qurum olan konservativ KXCP-ni tamamilə kənarlaşdıraraq, demək olar ki, Xalq Cəbhəsini "özəlləşdirdi".

Müxalif düşərgədə qarışıqlıq salmaq, "vahidlik" şansına yiyələnmək üçün mövqeləri tərs mütənasib olan partiyalarla, eyni zamanda, separat danışıqlar aparan Ə.Kərimlinin bu "bacarığı" isə həmişə sadiq qaldığı əqidəsinə və həmkarlarına dönüklük əlamətidir. "İctimai Palata"da, "Səkkizlər"də, "Onaltılar"da, "EL"-də, "Milli Şura"da özünə ön sıralarda yer axtaran Ə.Kərimlinin niyyətini duyub ifşa edən keçmiş başqan İ.Qəmbər tarixi rəqibinin belə oyunlarının mənasızlığını ifşa edərək, "meydanda mən varam" ideyasını təbliğ edir. Ə. Kərimlinin "siyasi portfelində" aktual problem Müsavat başqanı İ.Qəmbəri çıxdaş kimi arxada qoymaq, dağıdıcıların yeganə namizədi olmaq şansına yiyələnməkdir. Ancaq bu inamı çoxdan itirən Ə.Kərimlinin "sədri" olduğu islahatçılar arasında da etibarsızlıq nümunəsi olduğu sübuta yetirilib. Buna görə də, düşərgədə Ə.Kərimlinin sağ əli hesab olunan S.Həzinin cızma-qarasında guya hakimiyyətin "məxfi qrupu"nun "Yeni Müsavat" qəzetində "Milli Şura"ya qarşı yazılar yazdırdığı barədə böhtanlarının əsası olmadığı kimi deyilənlərdən Ə.Kərimlinin xəyanətkarlıq izi duyulur.



Bir zamanlar inhisarında olan "Azadlıq"da "Yeni Müsavat"a, İ.Qəmbərə, A.Hacılıya və digər rəqiblərinə qarşı antitəbliğat kampaniyası aparan Ə.Kərimli bununla bir daha yaramaz xislətli bir məxluq olduğunu nümayiş etdirdi. "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlunu hakimiyyətə işləməkdə ittiham etdiyi üçün qarşı tərəfdən tutarlı cavab alan Ə.Kərimli bir müddət öz qınına çəkildi. R.Arifoğlu isə Ə.Kərimlini Rusiyaya işləməkdə günahlandırdı. Olub-bitənlərin unudulduğunu güman edən Ə.Kərimli indi yenidən keçmiş vərdişini təkrarlayır. Bu məqamda, ALP lideri Lalə-Şövkət Hacıyevanın Ə.Kərimli haqqında dedikləri yada düşür: "Azərbaycan siyasətində belə mənəviyyatsızlıq görməmişdim. Adam düşmən olanda, gərək kişi kimi düşmən olsun. Ə.Kərimlidə çox alçaq səviyyə gördüm."

## Fazil Mustafa: "Satqın dedikdə, Əli Kərimli yada düşür"

BQP başqanı, millət vəkili Fazil Mustafa Ə.Kərimlinin satqınlığının AXCP-nin parçalanmasının əsasını qoyduğunu bildirib: "Ə.Kərimlinin "satılmaması" barədə danışanlar 1995-ci il və sonrakı tarixə bir də nəzər salsınlar. Onda yadlarına düşər ki, Ə.Kərimli hakimiyyətlə hansı danışıqlara gedib". BQP başqanı, eyni zamanda, bildirib ki, ümumiyyətlə, onun (Ə.Kərimlinin) Əbülfəz Elçibəyə qarşı apardığı mübarizənin arxasında hansı xəyanətlərin və satqınçılığın dayandığını, eləcə də, Kərimlinin yanındakıların da kimlər olduğunu xatırlayanlar yaxşı bilirlər: "Ona görə də, kimlərinsə tərəfindən tarixin bu dərəcədə təhrif olunması heç də ciddi qəbul edilmir. Azərbaycan Xalq Cəbhəsində satqınçılığın əsasını Ə.Kərimli və bu gün onun yanında olan adamlar qoyub. Bu səbəbdən də, Xalq Cəbhəsi dağılmağa məhkum oldu".

F.Mustafanın sözlərinə görə, əslində, Azərbaycanda satqın dedikdə, birinci olaraq, Ə.Kərimli yada düşür: "Onu da qeyd edim ki, bu gün Ə.Kərimlinin "satılmaması" iddia edən tərəflərin bu cür danışmağa mənəvi haqları yoxdur. Çünki xəyanət, satqınçılıq dedikdə ilk olaraq, təsəvvürlərdə, məhz Ə.Kərimlinin obrazı canlanır".

## Niyaməddin Orduxanlı: "Əli Kərimli Azərbaycan siyasətinin xəyanətkar "lideridir"

BAXCP-nin sədr müavini Niyaməddin Orduxanlı Ə.Kərimlini Azərbaycan siyasətinin xəyanət simvolu sayaraq bildirib ki, Azərbaycan siyasi arenasında Ə.Kərimli qədər silahdaşlarına, tələbə və hərəkat yoldaşlarına xəyanət edən ikinci bir şəxs yoxdur.

N.Orduxanlı hesab edir ki, Ə.Kərimli Azərbaycan siyasətinin xəyanət simvoludur: "Bu gün radikal müxalifətdə daxili münaqişənin kökü uzun illərə dayanır. Bunun da əsas mahiyyəti Ə.Kərimli və İ.Qəmbərin bir-birinə olan patoloji nifrətidir. Hesab edirəm ki, hər iki şəxs haqqında mətbuatda gedən yazılar reallığı əks etdirir".

BAXCP sədrinin müavini vurğulayıb ki, AXCP-ni sektaya çevirən Ə.Kərimlinin müxalifətdə opponent hesab etdiyi şəxslərə qarşı "Taliban" metodlarından yararlanması onun mahiyyətindən irəli gəlir: "Bu adam bolşevik təfəkkürlüdür. Ona görə də lazım gələrsə, talibançı, terrorist və bolşevik də ola bilər. Onun həyat prinsipləri bunlara söykənir".

N.Orduxanlı qeyd edib ki, Ə.Kərimli uzun illərdir siyasi rəqiblərinə qarşı bolşeviklik edir: "Məhz bu xislətinə görə, o, Əbülfəz Elçibəyə qarşı iyrənc kampaniya aparırdı və ölüm günü "Azadlıq" qəzetində təhqir olundu. Yəni hər kəs bilir ki, həmin illərdə Ə.Kərimlinin redaktəsi olmadan heç bir yazı çıxa bilməzdi. Bunları deməklə, bildirmək istəyirəm ki, Ə.Kərimli Əbülfəz Elçibəyə qarşı mənəvi terror həyata keçirən şəxs olub. Yəni bu insan terrorçudur və işinin öhdəsindən də məharətlə gəlir".

ASDP sədri Araz Əlizadə də Ə.Kərimlini satqınlıqda və xəyanətdə ittiham edib: "AXCP tarixində Ə.Kərimli qədər pozuçuluq fəaliyyəti, Ə.Kərimli qədər Elçibəy əleyhinə gedən, bu məsələni təşkilatlanmış, mobil şəkildə təşkil edib, sonunda xəyanət yolu tutan ikinci bir adam olmayıb. Bu, faktdır, tarixdir. Bu, mənim şəxsi mövqeyim deyil. Bu, Ə.Kərimlinin fəaliyyətinin nəticəsi və adıdır".

## Elşən Musayev: "Əli Kərimli Qərbə çoxdan satılıb"

Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayev bildirib ki, Ə.Kərimli fəaliyyəti boyu həmişə Qərb üçün alqı-satqı obyekti olub. Onun sözlərinə görə, Ə.Kərimli bütün siyasi fəaliyyəti boyunca ancaq satılmaq işinə baxıb: "Ə.Kərimli ancaq alqı-satqı cəmiyyəti qurub. Bu şəxsin mahiyyəti və xisləti, məhz Qərbə satılmağa köklənib. Ə.Kərimlini Azərbaycan daxilində heç kim saymasa da, o, bir çox beynəlxalq təşkilatların və qurumların əlində həmişə oyuncaq olub. Həmişə Azərbaycan dövlətinə qarşı çıxıb. Lakin bunu Azərbaycan hakimiyyətinə qarşı çıxmaq kimi ifadə edib. Bu gün hər şey ortalıqdadır. Artıq seçki dövrünün start götürülməsinə baxmayaraq, bu adam hələ də çayxana söhbətləri edir".

Elşən Musayev Gültəkin Hacıbəylinin yazısını oxuduğunu bildirir və burada yazılanları şərh edir: "Orada yazılıb ki, Ə.Kərimlini satın almaq lazımdır. Bu insan "mübarizə aparmaq" ifadəsi yerinə "satın almaq" ifadəsini işlədir. Yəni bu insanlar ancaq bazar jarqonu ilə danışırlar. G.Hacıbəyli alınıb-satılmağı gözəl bilən adamdır. Çünki vaxtilə Azərbaycan iqtidarını bizdən daha yaxşı müdafiə edib. Deməli, o, bunu mandata, mövqeyə və statusa sahib olmaq üçün edib. Heç kim zəmanət vermir ki, bu insanlar bir başqa xırda məsələyə görə dövləti və hakimiyyəti getdikləri yolda satmayacaqlar. G.Hacıbəyli alqı-satqı məsələləri üzrə mütəxəssisdir. Mən özümə borc bilərək, ona və cəmiyyətə bu mesajı vermək istəyirəm ki, Ə.Kərimli heç kimə lazım deyil. Xüsusilə də, iqtidara lazım deyil. Bu gün heç o, beynəlxalq təşkilatlara belə lazım deyil. Çünki bu alqı-satqı obyekti olaraq bu insan çox işlədilib. İşlənmiş əşyalara isə nə Azərbaycan siyasəti, nə Azərbaycan hakimiyyəti, nə də beynəlxalq təşkilatlar ehtiyac duymurlar. Milli xəyanətkarların yeri tarixin zibilliyidir və onlar sona qədər həmin zibillikdə qalacaqlar".

Fakt budur ki, AXCP sədri Ə.Kərimli "lider" olmağına "liderdir", sadəcə, onun "liderliyi", bilavasitə xalqın və dövlətin maraqlarına qarşı satılması faktı üzərində qurulub. Daha doğru desək, bu dırnaqarası "adam" hələ də nə qədər rüsvayçı bir faktorun qarşısında ucuz satılmasının fərqinə varmır. Varmırsa, demək, öz ucuzluğunu sübuta yetirir.

***Rövşən NURƏDDİNOĞLU***

## Sinoptiklər xəbərdarlıq edir: Yollar buz bağlayacaq

Sinoptiklər qeyri-sabit hava şəraiti ilə bağlı xəbərdarlıq edib. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin AZƏRTAC-a verdiyi məlumata görə, Bakıda və Abşeron yarımadasında noyabrın 24-25-də arabir yağış yağacağı, bəzi yerlərdə intensiv olacağı gözlənilir. Şimal-qərb küləyi əsəcək, arabir güclənəcək. Azərbaycanın rayonlarında noyabrın 25-i gündüzədək qeyri-sabit hava şəraitinin davam edəcəyi, arabir yağış, dağlıq və dağətəyi rayonlarda qar yağacağı, bəzi yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə yolların buz bağlayacağı gözlənilir. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.



# Azərbaycanın ailə ənənələri: kiçik ailə

**_Azərbaycanda orta əsrlərdə olduğu kimi, XIX-XX əsrlərdə də ailənin əsas forması kiçik ailə idi. Böyük ailə ilə kiçik ailə arasındakı fərq yalnız ailə üzvlərinin sayında olmamışdır. Onların arasındakı kəmiyyət fərqi ilə yanaşı, əsas iki keyfiyyət fərqi də olmuşdur. Əvvələn, böyük ailənin varidatı bütün ailəyə məxsus olduğu halda, kiçik ailədə mülkiyyətin sahibi yalnız onun başçısı olan kişi hesab edilirdi. İkinci fərq nəsillərin durumu ilə bağlı idi. Məlum olduğu kimi, böyük ailə 3-5 və daha çox nəsildən ibarət idi. Böyük ailə şaquli istiqamətdə baba, ata, oğul və nəvələrin, üfüqi istiqamətdə isə, qardaşların ailələrinin birliyi idi. Kiçik ailələr üçün xarakterik cəhət onun yalnız şaquli istiqamətdə iki və üç nəsildən ibarət olmasıdır._**

Kiçik ailə iki yolla - "qalıqlar" halında bizə məlum olan böyük ailənin parçalanması və ailədə həddi-büluğa çatmış oğulun evləndikdən sonra ayrılıb müstəqil ailə təşkil etməsi yolu ilə yaranmışdır.

Kiçik ailələr özləri də quruluşlarına görə, iki tipə bölünürlər: sadə və mürəkkəb ailələr. Sadə ailə iki nəsildən, yəni ata-ana və onların uşaqlarından ibarət olurdu. Mürəkkəb ailənin tərkibində isə üç nəsil - baba-nənə, ata-ana və nəvələr olurdu. Sadə ailədə uşaqlardan biri evləndikdən sonra ata-anası ilə birlikdə yaşadıqda ailənin tipi dəyişir və sadə ailə mürəkkəb ailəyə çevrilir, lakin kiçik ailə olaraq qalmaqda davam edir. Çünki gənc ailə müstəqil ailə kimi özünü doğrultmur, hələ ailə içərisində ailəyə çevrilə bilmir. Baba və nənə nəvələrinə də öz uşaqları kimi münasibət bəsləyirlər. Belə mürəkkəb kiçik ailələri cəmiyyət vahid ailə kimi qəbul edir. Sadə ailədə uşaqlardan ikisi evləndikdən sonra ata-anaları ilə birlikdə yaşayırlarsa, bu zaman ailənin tipi deyil, forması dəyişir, o, artıq böyük ailə hesab olunur.

Tədqiqatçılar qeyd edirlər ki, sadə ailə bütün ailələrin özəyidir. Bütün ailə formaları və tipləri onun əsasında təşəkkül tapırlar. Məhz bu keyfiyyətlərə görə, sadə ailə elm aləmində nuklear (latınca - "nukleus", "nüvə", "özək" sözündəndir) ailə adlanır. Nuklear ailə üçün uşaqların sayı həlledici əlamət deyildir. Sadə ailədə uşaqların sayı 1-2 nəfər olduqda onu azuşaqlı ailə, 3-4 nəfər olduqda orta saylı ailə, 5 nəfər və daha çox olduqda - çoxuşaqlı ailə hesab edirdilər.

Qəzənfər Rəcəblinin fikrincə, çoxuşaqlı ailələr Azərbaycan üçün ənənəvi və səciyyəvi hal hesab olunmuşdur. Uşaqların sayı 9-12 olan ailələr Azərbaycanda az deyildi. Ailədə uşaqların sayı artdıqca, onların valideynləri deyirdilər: "Allah payıdır". Çoxuşaqlı ailə xoşbəxt ailə hesab edilirdi. Çox uşağı olan valideynlər cəmiyyətdə böyük nüfuza və hörmətə malik idilər. Göründüyü kimi, ailə üzvlərinin sayının çoxluğu və ya azlığı ilə onun böyük ailə və ya kiçik, sadə ailə və ya mürəkkəb ailə olması arasında birbaşa əlaqə asılılığı yoxdur. Sadə kiçik ailələr də ailə üzvlərinin sayına görə "böyük ailə" ola bilərlər. Lakin belə "böyük ailələr" klassik böyük ailə, yəni ailə icması hesab edilmirlər.

Azərbaycanda kiçik ailənin yaranması, yəni həm böyük ailənin parçalanması, həm də oğulun evləndikdən sonra ata-anasından ayrılıb müstəqil ailə təşkil etməsi zamanı əmlak bölgüsü baş verirdi. Əmlak bölgüsünün həyata keçirilməsi eyni prinsiplərə əsaslanırdı və ailənin üzvləri tərəfindən zərurət kimi qarşılanırdı. Bu zərurilik bir zərb məsəldə də öz əksini tapmışdır: "Qardaşıq, amma cibimiz ayrı".

Əmlak bölgüsü ailənin yalnız ümumi mülkiyyətini əhatə edirdi. Böyük ananın və gəlinlərin cehizi, mehr (kəbin haqqı) və gəlinə ər evinə gələn zaman qayınatası tərəfindən bağışlanmış "dizdayağı" qadınların şəxsi mülkiyyəti hesab edilirdi. Ailə əmlakının bu hissəsi ailənin ümumi mülkiyyətinə aid edilmirdi. Ailənin ümumi mülkiyyəti torpaq sahəsi, yaşayış evləri, təsərrüfat tikililəri, mal-qara, əmək alətləri, ev əşyaları, qızıl-gümüş və pul vəsaitindən ibarət olurdu.

Ailə mülkiyyətinin bölgüsü əksər hallarda məhəllə ağsaqqalının, bəzən mollanın iştirakı ilə həyata keçirilirdi. Ailə mülkiyyətinin bölünməsi zamanı payayırma qaydaları Azərbaycanın hər yerində, ayrı-ayrı bölgələrdəki lokal xarakterli fərqlər istisna olmaqla, təxminən eyni olmuşdur. Ailə əmlakının, el arasında deyildiyi kimi, "ata malının" bölüşdürülməsinə başlamazdan öncə, qadınların şəxsi mülkiyyəti - "cehiz", "mehr" və "dizdayağı" ayrılırdı. Sonra isə valideynlər - baba və nənə, ata və ana üçün "xeyratlıq" (Gəncə bölgəsində "adnalıq" adlanırdı. Bu pay valideynlər vəfat edərkən onların dəfn və ehsan xərcləri üçün nəzərdə tutulurdu), subay qardaşın toy xərci üçün "ərgənlik", yaxud "subaylıq" və subay bacı üçün "cehizlik" (bəzi bölgələrdə bu paya "isə" deyilir) ayrılırdı. Bundan sonra ailənin yerdə qalan mülkiyyəti yeni ailələr arasında bölüşdürülürdü. Bu zaman islam hüququna və şəriət qaydalarına uyğun olaraq, qardaşlar bərabər pay alırdılar, qızlara qardaşın payının yarısı, anaya isə səkkizdə biri qədər pay ayrılırdı. Anaya ayrılan payın azlığının səbəbi əvvəldən onun şəxsi mülkiyyətinin ayrılması idi.

Böyük ailə kiçik ailələrə parçalanan zaman əmlak bölgüsü aparılarkən, qardaşların sayı qədər istehsal alət və vasitələri olmadığından, çox vaxt əmək alətləri - kotan və xış, istehsal vasitələri - cəhrə, hana, toxucu dəzgahı, su dəyirmanı, su dingi və qoşqu heyvanları, həmçinin, məişətə bağlı bəzi əşyalar - məclis qazanı, məclis samovarı, arxıd (ağac nehrə) və s. bölüşdürülmürdü və qardaşların ümumi mülkiyyətində saxlanılaraq ata sağdırsa onun, vəfat etmişsə qardaşlardan birinin, adətən, ata ocağında oturan qardaşın sərəncamında qalırdı. Bu istehsal vasitələrindən yeni ayrılmış kiçik ailələr növbə ilə, məişət əşyalarından isə zərurət olanda edirdilər.

R.Rəcəbli yazır: "XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Azərbaycanda dövlət torpaqlarının bir hissəsi icma torpaq sahibliyi hüququnda kənd cəmiyyətlərinin istifadəsinə verilmiş, bir hissəsi isə mülkədarlarda qalmışdı. Həm dövlət, həm də mülkədar torpaqlarında yaşayan kəndli ailəsinə əmlak bölgüsü zamanı torpaq ayrılmırdı. Dövlət torpağında yeni yaranmış ailələrə ev tikmək üçün həyətyanı torpaq sahəsini kənd cəmiyyətləri verirdi. Həmin ailələr əkin və biçənək sahələrinin vaxtaşırı bölgüsündə müstəqil tüstü kimi iştirak edərək, icma torpaqlarından pay alırdılar. Mülkədar torpaqlarında yaşayan kəndli ailələrində əmlak bölgüsü zamanı həyətyanı torpaqlar da bölünürdü, əkin və biçənək sahələrini isə yeni ailələr mülkədardan icarəyə götürürdülər.

Göründüyü kimi, həm böyük, həm də kiçik ailədə kişi ailənin başçısı sayılırdı. Ailədə ata uşaqların mənafeyi üçün əməli işlər görmək bacarığına və imkanına malik olduğuna görə, ailənin bütün üzvləri onun iradəsinə tabe idilər. Ailə həyatı ilə bağlı olan bütün əsas qərarları ailə başçısı qəbul edirdi. Ana isə uşaqları böyüdür, onları cəmiyyət üçün ləyaqətli bir insan kimi yetişdirirdi. Ananın zəhməti və hədsiz fədakarlığı ailədə qiymətləndirilirdi".

Tədqiqatçılar qeyd edirlər ki, əsrlərdən keçib gələn Azərbaycan milli ənənəsinə görə, atanın övlada üç borcu vardır: tərbiyə, təhsil və evləndirmək. Bu üç borcu atanın oğlanları da öz övladları qarşısında yerinə yetirməlidirlər. Dastanlarımızda bu üç borcun yerinə yetirilməsi Allahın hökmü kimi təbliğ və tərənnüm edilir.

Atanın övladı qarşısında bu üç borcu ailənin yerinə yetirdiyi vəzifələrlə təmin olunur. Bütün xalqlarda olduğu kimi, Azərbaycan ailəsi də üç funksiyanı yerinə yetirmişdir: təsərrüfat funksiyası, nəsilartırma və uşaqların tərbiyəsi. Ailənin bu üç funksiyası arasında qarşılıqlı əlaqə mövcuddur. Onların biri digərini doğurur və biri digərini tamamlayır. Bu funksiyaların həyata keçirilməsi ilə əlaqədar ailə üzvləri arasında adət-ənənələr əsasında formalaşmış qarşılıqlı münasibətlər mövcuddur. Azərbaycan ailəsində valideynlər ilə övlad arasında əsrlər boyu təşəkkül tapmış və tarixin sınaqlarından çıxmış milli ənənələrimizlə tənzimlənən qaydalar mövcuddur. Bu qaydalar sistemində böyüyün də, kiçiyin də öz yeri vardı. Ailənin həyatında baba və nənənin də xüsusi yeri vardı. Onların nüfuzu və hörməti həm ailə daxilində, həm də ailədən kənarda, ailə həyatı ilə bağlı çətin problemlərin aradan qaldırılmasında həlledici rol oynayırdı.

Q.Rəcəbli yazır: "Ailənin maddi durumu, iqtisadi vəziyyəti onun təsərrüfat funksiyasını yerinə yetirməsindən asılıdır. Ailənin təsərrüfat işlərini yerinə yetirmək vəzifəsi onun həm də təsərrüfat özəyi olması ilə əlaqədar idi. Ailənin bütün üzvləri təsərrüfat işləri ilə məşğul olurdu. Ailədə ən ağır fiziki işləri kişilər görürdü. Torpağı şumlamaq, əkib-becərmək, taxılı biçmək və dəyirmanda üyütmək, məhsulu yığmaq, ot çalmaq, qoyunların qırxılması, arx qazmaq, hasar çəkmək, meşədən odun gətirmək və s. ağır fiziki işlər ailədə kişilərin öhdəsinə düşürdü. Ailənin daxili təsərrüfat işləri isə qadınların qayğısı idi. Qadınlar bostan və dirrikdə çalışır, qoyun-quzu bəsləyir, inəkləri sağır, süd məhsulları hazırlayır, qırxılmış yunu yuyur, darayır, əyirir və boyayır, yun iplikdən çanq bağı və corabdan tutmuş xalça-palaz və xalıgəbəyədək müxtəlif məişət əşyaları toxuyur, yorğan sırıyır, paltar yuyur, paltar tikir, xörək bişirir, evi yığışdırır, səliqə-sahman yaradır və üstəlik, uşaqların tərbiyəsi ilə də məşğul olurdular.

Ailə üzvləri arasında qarşılıqlı münasibətlərin mərkəzində qadının ailə və cəmiyyətdə mövqeyi və vəziyyəti dururdu. Yoxsul və ortabab kəndli ailələrində qadın ev təsərrüfatında gördüyü işlərdən əlavə əri ilə yanaşı, çöl işlərində də çalışırdı. Quba bölgəsində meyvəçilikdə, Lənkəranda çəltikçilikdə, Şəki, Şirvan, Qarabağ və Naxçıvanda baramaçılıqda, Qazax, Zəngilan və İrəvanda qoyunçuluqda qadın əməyindən geniş istifadə edilirdi. Belə kəndli ailələrində qadın ailənin bütün təsərrüfat işlərində fəal iştirak etdiyinə görə onun ailədə sosial vəziyyəti bir qədər yaxşı idi, kişi onunla məsləhətləşirdi. Şəhərlərdə və varlı kəndli ailələrində isə vəziyyət belə deyildi. Ev təsərrüfatında dayə, nökər, kəniz və qarabaş qadına kömək edirdi. Lakin onun ərinin işlərinə qarışmağa ixtiyarı yox idi. Azərbaycanın bir sıra şəhər və kəndlərində qadınlar yaşmaq tutmalı və çadra örtməli idilər. Naməhrəm kişilər onların üzlərini görməməli idi. Hətta zadəgan ailələrindən olan və yüksək cəmiyyətə məxsus qadınlar küçəyə çıxdıqda üzlərinə toxunma niqab tutardılar. Cavan gəlin, nəinki yad kişidən, hətta bir uşağı olanadək qayınatasından, qayınlarından və ailənin digər yaşlı kişilərindən də üzünü gizlətməli və başını örtməli idi. Kəndli ailələrində isə qadın çöl işlərində kişilərlə yanaşı çalışdığından nisbətən sərbəst idi. Qayınata və qayınlar "üzgörəncəyi" verdikdən sonra gəlinə yaşamağı açmağa icazə verirdilər. Kənddə cavan gəlin bir uşağı olandan sonra daha üzünü gizlətmirdi. Ailə üzvləri arasındakı qarşılıqlı münasibətlərdə qayınana-gəlin münasibətləri xüsusi yer tuturdu. Yoxsul və ortabab kəndli ailələrində evdə qayınana və baldız olduqda həm ev, həm də çöl-təsərrüfat işlərində çalışan gəlinin vəziyyəti bir qədər yüngül olurdu. Qayınana və baldız ona həyan olur, kömək edirdilər. Bəzi qayınanalı ailələrdə isə gəlinin günü qara olurdu. Çöl işlərindən yorğun gələn gəlin ev işlərinin də bütün ağırlığını öz çiyinləri üzərində daşımalı olurdu. Belə qayınanalı ailələrdə gəlin hamıdan gec yatmalı və tezdən durmalıydı. Ərin cavan arvadına münasibəti çox vaxt qayınananın gəlinə münasibətindən asılı olurdu. Qayınananın gəlindən xoşu gəlmirdisə, gəlin ərinin gözündən düşürdü. Bəzən qayınana-gəlin münasibətlərinin gərgin olmasında təqsirkar gəlin olurdu. Qayınana-gəlin münasibətlərinin hər iki durumu haqqında şifahi xalq yaradıcılığında və bədii ədəbiyyatda çoxlu nümunələr vardır. Həmin nümunələr və etnoqrafik tədqiqatlar göstərir ki, Azərbaycan ailəsində yaxşı, ağıllı, qayğıkeş, mülayim, mehriban qayınana və gəlin-ərin sayı çox olmuşdur. Əsil-nəsilli ailələrdə qayınana da, gəlin də yaxşı dərk edirdilər ki, onların hər ikisi qadındır və hər ikisi balalarına qarşı eyni hisslər keçirən anadır, uşaqlarının və ailələrinin xoşbəxtliyi, gələcəyi onların mehriban və qayğıkeş münasibətlərindən asılıdır. Əlbəttə, belə mehriban münasibətlərin yaranmasında müdrik atanın (qayınatanın) və ağıllı oğulun (ərin) rolu da az olmurdu.

Q.Rəcəbli fikrini yekunlaşdıraraq göstərir ki, ailənin nəsilartırma və uşaqların tərbiyəsi kimi funksiyaların yerinə yetirməsi məsələlərinin şərhi nikah, toy və uşaqların tərbiyəsi bölmələrində açıqlanır. Ailə-nikah münasibətlərini açıqlamazdan əvvəl, Azərbaycan etnoqrafiyasında bu məsələ ilə bağlı anlayışlarda bəzi dolaşıqlıqların və səhv fikirlərin mövcudluğunu qeyd etmək lazımdır. Həmin səhvlərin kökü hələ XIX əsrdə azərbaycanlıların ailə-nikah münasibətləri haqqında məlumat verən müəlliflərin tədqiqatlarından gəlirdisə, indi də bəzi əsərlərdə belə mülahizələrə təsadüf edilir. Belə ki, monoqamiya (təkkəbinlilik) və poliqamiya (çoxkəbinlilik) kimi nikah formaları kiçik ailə və böyük ailə anlayışları ilə qarışdırılaraq monoqam və patriarxal ailələr adlandırılır, ibtidai cəmiyyətdə ekzoqam olan qəbilələr "endoqam", endoqam olan tayfalar "ekzoqam" kimi verilir. Aərbaycanlılarda qohumla evlənməyə icazə verilməsi adəti qəbilə icması və tayfa quruluşuna məxsus olan endoqamiya ilk qarışdırılır və müasir Azərbaycan ailəsində ibtidai icma quruluşu dövrünə aid olan ekzoqam və endoqam nikahlar və ya onların qalıqları axtarılır və s.

Azərbaycanlılarda ailə-nikah münasibətləri ilə əlaqədar anlayışlara aydınlıq gətirmək üçün onların mahiyyətindən irəli gələn təsnifatdan istifadə etmək məqsədəuyğundur. Bu təsnifata nikah formaları - monoqamiya və poliqamiya, nikah adətləri - qohumla evlənmə, levirat və sororat, nikah üsulları - elçilik, nişan, toy və qoşulub qaçma daxildir. Bu forma, adət və üsulların hər birinin icra prosesində rəngarəng qayda, ənənə və vərdişlərdən istifadə edilmişdir.

**_Vahid ÖMƏROV,_**
**_fəlsəfə üzrə fəlsəfə doktoru_**





*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Gələn il 1,5 milyard ədəddən çox smartfon satılacaq



"Digitimes" analitik agentliyinin hesabatına əsasən, 2018-ci ildə qlobal bazarda smartfon satışının həcmi 1,5 milyard ədədi ötəcək. AZƏRTAC xəbər verir ki, çinli analitiklərin məlumatına görə, 2017-ci ilin sonunadək təxminən 1,43 milyard telefon satılacaq, 2018-ci ildə isə bu göstərici təxminən 5 faiz artacaq. Ekspertlər əmindirlər ki, ən çox smartfon Cənub-Şərqi Asiya, Cənubi Amerika və Afrikanın inkişaf etməkdə olan bazarlarında satılacaq. 2018-2022-ci illərdə smartfonların satışı ildə 60-70 milyon ədəd artacaq.

ABŞ-ın "Apple" və Finlandiyanın "Nokia" şirkəti nəzərə alınmasa, smartfonların əksəriyyəti Asiya şirkətləri tərəfindən istehsal edilir. Proqnozlara görə, Çinin "Huawei", "Oppo" və "Vivo" şirkətləri artıq bu il qlobal smartfon istehsalçılarının reytinqində müvafiq olaraq üçüncü, dördüncü və beşinci yerləri tutacaq.

## Pul saymaq stresi azaldır, qan dövranını yaxşılaşdırır

Minessota Universitetinin (ABŞ) alimləri çox maraqlı eksperiment aparıblar. Onlar pul saymağın insanın sağlamlığına və əhvalına olan təsirini araşdırıblar. Araşdırma göstərib ki, pul saymaq stresi azaldır, əhvalı və beyin qan dövranını yaxşılaşdırır. Söhbət həm kağız puldan, həm də xırda puldan gedir. Bunun sadə elmi izahı var - barmaqların kiçik motorikası (barmaqların hərəkətləri) beyinin fəaliyyətinə müsbət təsir edir, onu stimullaşdırır. Lakin həkimlər xəbərdarlıq edir - pul ən çirkli "əşya"lardan biri sayılır. Araşdırmalar göstərib ki, pulların üzərində 200-ə (!) qədər müxtəlif ziyanlı mikrob ola bilər.

## İnsan gündə neçə qaşıq şəkər qəbul edə bilər?

İnsanın gündə neçə çay qaşığı şəkər qəbul etməsi barədə fikirlər, zaman zaman müzakirə mövzusu olub.1990-cı ildə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən şəkərə olan gündəlik normalar təyin olunub. Bu göstərici xanımlar üçün - 50 qram, kişilər üçün isə - 70 qram təyin edilib. Lakin müasir mütəxəssislər bu normanın çox olduğunu düşünürlər. Məhz bunun nəticəsində, Nyukasl Universitetinin həkimləri müasir dövr üçün gündəlik şəkər normasını - 5 çay qaşığı qədər təyin ediblər. Bu isə öncəki göstəricilərdən xeyli az, daha dəqiq isə - 30 qram təşkil edir. Həkimlərin iddiasına görə, bu norma, ürəyin işini yaxşılaşdırır, şəkər xəstəliyindən qoruyur və dişlərə olan mənfi təsirin qarşısını alır. Qeyd olunur ki, bu normaya, gün ərzində içdiyimiz çaya və ya qəhvəyə əlavə etdiyimiz şəkərlə bərabər, həmçinin şirniyyat, qazlı və qazsız içkilərin tərkibində olan şəkər də daxildir.

## Cüdo üzrə Bakı çempionatı start götürüb

Noyabrın 23-də "Sərhədçi" İdman Olimpiya Kompleksində kişilər və qadınlar arasında cüdo üzrə Bakı çempionatına start verilib. İki gün davam edəcək paytaxt birinciliyində 24 klubdan 219 kişi və 23 qadın cüdoçu medallar uğrunda mübarizəyə qoşulub. Yarışın birinci günündə ümumilikdə 121 cüdoçu (98 kişi və 23 qadın) tatami üzərinə çıxacaq. Qadınların mübarizəsində bütün çəki dərəcələri (48 kq, 52 kq, 57 kq, 63 kq, 70 kq, 78 kq və 78 kq-da yuxarı) üzrə qaliblər müəyyənləşəcək. Kişilərin yarışında isə 60 və 66 kiloqram çəki dərəcələrində çıxış edən cüdoçular mübarizə aparırlar.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Korreksiyaedici ixtisasının III kurs tələbəsi Təmirova Mərziyə Sahib qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız saylır.

## "The Sun" qəzeti: "Hakimdən "Qarabağ"a qarşı ağılsız qərar"




Çempionlar Liqasının qrup mərhələsində keçirilən "Qarabağ" - "Çelsi" oyununda hakimin mübahisəli qərarları haqda İngiltərə mətbuatı da yazıb. Məlumata görə, məşhur "The Sun" qəzeti matçın baş hakimi Manuel De Souzanın bu qərarı hətta "Çelsi" azarkeşlərini də təəccübləndirib. Onlar Tvitter vasitəsilə hakimin qərarını pisləyiblər və bu cür köməyə ehtiyaclarının olmadığını bildiriblər.

Qeyd edək ki, görüşün baş hakimi matçın 19-cu dəqiqəsində Rəşad Sadıqovun cərimə meydançasında rəqiblə mübarizəsini qayda pozuntusu kimi qiymətləndirərək ona qırmızı vərəqə göstərib, "Qarabağ"ın qapısına isə penalti təyin edib. Zərbəni dəqiq yerinə yetirən "Çelsi" təmsilçimizin say azlığından yararlanaraq daha 3 qol vuraraq 4:0 hesabı ilə qalib gəlib.

## "Çelsi" və "Barselona" Çempionlar Liqasının səkkizdəbir finalında!

UEFA Çempionlar Liqasının qrup mərhələsinin beşinci turunun ikinci günündə keçirilən qarşılaşmalardan sonra "Çelsi" və "Barselona" komandaları səkkizdəbir finala vəsiqəni artıq təmin ediblər. AZƏRTAC xəbər verir ki, "C" qrupunda yer alan İngiltərə çempionu "Çelsi" ötən gün Bakı Olimpiya Stadionunda Ağdamın "Qarabağ" komandasını 4:0 hesabı ilə məğlub edərək xallarının sayını 10 çatdırıb. Bununla da londonlular növbəti mərhələyə adlayıblar. Qrupda "Roma"nın 8, "Atletiko Madrid"in 6, "Qarabağ"ın 2 xalı var. "D" qrupunda isə "Barselona" səfərdə "Yuventus" ilə 0:0 hesablı heç-heçə edərək 11 xalla növbəti mərhələyə yüksəlib. "Yuventus" 8 xalla ikinci, "Sportinq" 7 xalla üçüncü, "Olimpiakos" isə 1 xalla sonuncu pillədə qərarlaşıb.

Qeyd edək ki, daha əvvəl PSJ, "Bavariya", "Mançester Siti", "Beşiktaş", "Tottenhem" və "Real" pley-off mərhələsinə vəsiqəni təmin ediblər.

## PSJ UEFA Çempionlar Liqasında yeni rekord müəyyənləşdirib

PSJ klubu futbol üzrə UEFA Çempionlar Liqasının qrup mərhələsinin V turu çərçivəsində "Seltik"i 7:1 hesabı ilə məğlub edərək yeni rekord müəyyənləşdirib. PSJ-nin yarımmüdafiəçisi Marko Verrattinin oyunda vurduğu qol komandasının beşinci, qrup mərhələsində isə 22-ci top olub. Daha sonra isə Edinson Kavani və Dani Alves komandanın, müvafiq olaraq 23-cü və 24-cü qollarını vurublar. Beləliklə, PSJ turnirin qrup mərhələsində qolların sayına görə, yeni rekord müəyyənləşdirib. Bu nəticəyədək ən yaxşı göstərici "Borussiya"ya aid idi - 21 qol. Həmçinin Paris təmsilçisi məğlubiyyətsizlik seriyasını da 23-ə çatdırıb. Sonuncu dəfə baş məşqçi Unai Emerinin komandası cari il aprelin 30-da Fransa çempionatında "Nitsa"ya 1:3 hesabı ilə məğlub olub. PSJ cari mövsümdə Çempionlar Liqası yarışlarında məhz "Seltik"lə oyunda qapısında qol görüb. Hazırda komandanın turnirdə top fərqi 24:1-ə bərabərdir.

## FIFA milli komandaların yeni reytinq cədvəlini açıqlayıb

FIFA futbol üzrə yığma komandaların növbəti reytinq siyahısını açıqlayıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan milli komandası ötən ayla müqayisədə iki pillə geriləyib. Aktivində 281 xalı olan Azərbaycan millisi 115-ci pillədən 117-ci sıraya enib. Qeyd edək ki, yeni reytinqdə lider dəyişib. Xalını 1602-yə çatdıran Almaniya birinci yerdədir. Hesabında 1483 xal olan Braziliya ikinci sıraya enib. Portuqaliya isə 1358 xalla üçüncü pillədə qərarlaşıb.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500